10 yanvar 2024 №1-2 (2067) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident seçkilərində yeddi namizəd iştirak edəcək

2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində yeddi namizəd iştirak edəcək. Prezidentliyə namizədliyin qeydə alınması prosesi başa çatıb.

Bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) yanvarın 9-da keçirilən iclasında bildirilib.

MSK-nın sədri Məzahir Pənahov diqqətə çatdırıb ki, Seçki Məcəlləsinin müvafiq maddəsinə əsasən, yanvarın 8-i saat 18:00-da imza vərəqələri ilə (minimum 40 min imza) birlikdə namizədliyin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin təhvil verilməsi vaxtı bitib. Namizədliyi irəli sürülən 17 nəfərdən 10 nəfər zəruri olan seçki sənədlərini qeyd olunan vaxtadək təqdim etməyib.

Xatırladaq ki, MSK dekabrın 30-da Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən İlham Əliyevin prezidentliyə namizədliyini qeydə alıb.

davamı səh.2-də

## Film layihələri müsabiqəsi ilə bağlı Apellyasiya komissiyasının iclası



Azərbaycan Respublikası Kino Agentliyi nəzdində yaradılmış Apellyasiya komissiyasının yanvarın 8-də ilk iclası keçirilib.

Komissiya üzvləri Apellyasiya komissiyasına təqdim olunan layihələrlə bağlı fikir və təkliflərini səsləndiriblər. Bəzi layihələrin təkmilləşdirilməsi, rejissor işi ilə bağlı təkliflərin verilməsi, əlavə və dəyişikliklərin labüdlüyü diqqətə çatdırılıb.

səh.3

## Perinatal Mərkəzdəki yanğınla bağlı cinayət işi başlanıb

### Dörd körpə həlak olub

Xəbər verildiyi kimi, yanvarın 9-u səhər saatlarında Bakı şəhəri Xətai rayonu, Yusif Səfərov küçəsində yerləşən Respublika Perinatal Mərkəzində yanğın baş verib.

Bu barədə Baş Prokurorluq, Fövqəladə Hallar Nazirliyi (FHN) və "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" – TƏBİB-in yaydığı birgə məlumatda bildirilir ki, yanğın FHN və Daxili İşlər Nazirliyinin qüvvələri tərəfindən qısa müddətdə söndürülüb, aidiyyəti dövlət orqanlarının koordinasiyalı fəaliyyəti ilə mərkəzdən təxliyə həyata keçirilib.

Yenidoğulmuşların intensiv terapiya şöbəsində müalicə alan 4 uşağın meyiti aşkar olunub. Fakta görə, Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, səhiyyə naziri Teymur Musayev və Baş prokuror Kamran Əliyev Respublika Perinatal Mərkəzində baş vermiş yanğınla əlaqədar hadisə yerində olublar. Yanğının başvermə səbəbləri və nəticələri barədə məlumat verilib.

Sonra Anar Ələkbərov, Teymur Musayev və Kamran Əliyev yanğın zamanı tüstüdən zəhərlənərək Kliniki Tibbi Mərkəzə yerləşdirilənlərə baş çəkiblər.

Qeyd edək ki, yanğın hadisəsindən sonra mərkəzdən ümumilikdə 60 körpə təxliyə edilib. TƏBİB-dən verilən məlumata görə, körpələr 6 tibb müəssisəsinə təxliyə olunub.

## "Arşın mal alan" yeni quruluşda Ankara səhnəsində




Dahi Üzeyir Hacıbəylinin şöhrəti dünyanı dolaşan 111 yaşlı "Arşın mal alan" operettası Ankara Dövlət Opera və Balet Teatrında növbəti dəfə tamaşaya hazırlanır.

Səhnə əsəri Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru Hafiz Quliyev tərəfindən yeni quruluşda təqdim olunacaq.

Premyerası yanvarın 13-də olacaq tamaşanın orkestr rəhbəri Rüstəm Rahmedov, mətn üzrə redaktoru Şenol Talınlı, dekor və kostyum üzrə rəssamı Yusuf Toker, işıq üzrə rəssamı Ali Gökdemir, xoreoqrafı Özge Ay, konsertmeysteri isə Erkin Onaydır.

Qeyd edək ki, bu, Hafiz Quliyevin Ankara Dövlət Opera və Balet Teatrında ilk yaradıcılıq işi deyil. Rejissor bundan əvvəl 2003 və 2013-cü illərdə "Arşın mal alan"a fərqli heyətlərlə bu teatrın səhnəsində quruluş verib.

# "Təcrübəmizi bölüşür, sizdən də öyrənirik"

### Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Azərbaycana ilk dəfə rəsmi səfər edib

Sizin Azərbaycana səfər etməyiniz tarixi hadisədir. Bu, Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Əminəm ki, bu səfər iki ölkə arasındakı dostluq, qardaşlıq münasibətlərinin inkişafına böyük töhfə verəcək.

Prezident İlham Əliyev bu sözləri yanvarın 9-da Bakıda Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed əl-Nəhyan ilə geniş tərkibdə görüşdə çıxış edərkən deyib.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti yanvarın 8-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Şeyx Məhəmməd bin Zayed əl-Nəhyan həmin gün Fəxri xiyabanda Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib. Ali qonaq Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini də ehtiramla yad edib.

Yanvarın 8-də axşam Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed əl-Nəhyanın şərəfinə rəsmi ziyafət verilib.

Yanvarın 9-da Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin rəsmi qarşılanma mərasimi olub.

Daha sonra iki ölkə prezidentlərinin geniş tərkibdə görüşü keçirilib.



Görüşdə Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin qardaşı, Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident Divanının rəhbəri Şeyx Mansur bin Zayed əl-Nəhyan, Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin qardaşı, xarici işlər naziri Şeyx Abdulla bin Zayed əl-Nəhyan, Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin oğlu Şeyx Həmdan bin Məhəmməd əl-Nəhyan iştirak ediblər.

Görüşdə çıxış edən Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirlikləri rəhbərinin ölkəmizə ilk rəsmi səfərinin əhəmiyyətini vurğulayıb: "Sizinlə dünən rəsmi ziyafət zamanı bir çox məsələləri ətraflı müzakirə etdik və bizim strateji tərəfdaşlığımızı bir daha təsdiqlədik. Şadam ki, bizim şəxsi görüşlərimiz müntəzəm xarakter alır".

davamı səh.2-də

## Bakı qarşıdakı illərdə necə dəyişəcək?

### 2040-cı ilədək Baş planda nələr nəzərdə tutulub?

Xəbər verildiyi kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2023-cü il 504 saylı Qərarı ilə "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiq edilib.

Nazirlər Kabinetindən qərara verilən izahda bildirilib ki, Bakı şəhərinin Baş planı Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə beynəlxalq tenderin qalib - "AS+P Albert Speer + Partner Gmbh" şirkəti (Almaniya) tərəfindən hazırlanıb. "AS+P Albert Speer + Partner Gmbh" şirkəti tərəfindən Baş plan layihəsinin hazırlanmasına yerli layihə təşkilatı qismində Bakı Dövlət Layihə İnstitutu, həmçinin mühəndis-kommunikasiya sistemləri, nəqliyyat və iqtisadi aspektlərin işlənməsi məqsədilə "Ramboll UK" (Böyük Britaniya) və "EY Advisory" (Fransa) şirkətləri cəlb edilib.



Baş plan paytaxtın bütün inzibati ərazisini əhatə etməklə 2040-cı ilədək dövrdə şəhərin əsas inkişaf prioritetlərini özündə əks etdirir. O cümlədən güclü və davamlı inkişafı təmin edəcək mütəşəkkil çoxmərkəzli şəhər, ərazilərdən kompleks istifadə nəticəsində formalaşan dayanıqlı şəhər mühiti, mədəni və tarixi-memarlıq irsinin qorunması, ərazi zonalaşdırılması, şəhər infrastrukturunun genişləndirilməsi, ekoloji sağlamlaşdırma və ərazilərin abadlaşdırılması tədbirləri, habelə post-sənaye dövrünə keçidi təmin edəcək yeni şəhər iqtisadiyyatı məsələləri Baş planda ehtiva edilir.

Qarşıdakı 16 ildə paytaxtın simasının xeyli dərəcədə dəyişməsini nəzərdə tutan Baş planda nələr var?

Bakı şəhərinin 2040-cı ilədək inkişafı çoxmərkəzli inkişaf strategiyasına əsaslanacaq. Çoxmərkəzli inkişaf strategiyası iki əsas məqsədə nail olmağı hədəfləyir: Mərkəzi Bakının yüklənmədən azad olunması; şəhərətrafı ərazilərin cəlbediciliyinin artırılması və gücləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, mənzil fondunun müasirləşdirilməsi, xidmət səviyyəsinin yüksəldilməsi.

Baş plan çərçivəsində mərkəzlər üç kateqoriyaya bölünüb.

Əsas şəhər mərkəzi (Mərkəzi Bakı) paytaxt Bakı üçün spesifik və ixtisaslaşmış şəhər xidmətlərinin təmin edildiyi və yüksək səviyyəli mədəniyyət obyektlərinin yerləşdiyi iqtisadi və inzibati mərkəz kimi fəaliyyət göstərəcək.

davamı səh.3-də

## İşğal və Zəfər muzeyləri layihələrinin italiyalı eksperti

### Fabrisio Konti: "Ağdamdakı İşğal muzeyində əsas diqqət şəhərin, Şuşada mədəniyyətin, Zəngilanda isə təbiətin məhvinə yönəldiləcək"



"İlk dəfə Zəngilan, Kəlbəcər, Cəbrayıl, Füzuli və Şuşaya gedəndə məndə belə bir fikir yarandı ki, biz bu dağıntını qorumalıyıq. Azərbaycan tərəfi də tarixin bu mərhələsini gələcək nəslə ötürmək istəyində idi. Şəhərin mərkəzində dağıntılar qoruq kimi saxlanılacaq. Biz istəyirik ki, gələcək nəsillər bu dağıntını görüb onunla "danışa" bilsinlər".

səh.7

## Tarixin daş yaddaşına işıq salan alim

Azərbaycan tarix elminin inkişafına töhfələr verən alimlərimizdən biri də AMEA-nın müxbir üzvü Məşədixanım Nemətova olub. O, 60 illik elmi fəaliyyəti dövründə tarixi ərazilərimizi addım-addım gəzərək ərəb qrafikası ilə yazılan daş kitabələri araşdırıb. Ölkəmizdə epiqrafika elminin təşəkkülü və inkişafı onun adı ilə bağlıdır. Görkəmli epiqrafçı alimi anadan olmasının 100 illiyi münasibətilə yada saldıq.



M.Nemətova epiqrafik abidələrə əsasən, bir sıra memarlıq abidələrinin təyinatını və tarixini dəqiqləşdirib. Vaxtilə Araz və Həkəri çayları hövzəsində memarlıq abidələri üzərindəki kitabələrin oxunması ilə bağlı müəyyən çətinliklər olub...

səh.6



"Rəssamın Xəzər və Normandiyadan baxışları"

səh. 3



Məzarı üstündə ağac əkin ki...

səh. 6



Gəncə Filarmoniyasında "Xalqın mədəni sərvəti"

səh.4

# Məhəmməd Əmin Rəsulzadənin 140 illiyi ilə bağlı sərəncam

2024-cü ilin yanvar ayında görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyi tamam olur.



Prezident İlham Əliyev 2023-cü il dekabrın 30-da Rəsulzadənin 140 illiyi ilə bağlı sərəncam imzalayıb.

Sərəncamda vurğulanır ki, Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik ideallının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutur. Uzun illər ərzində mühacirətdə də o, müstəqil Azərbaycan arzusu ilə yaşayıb və mübarizə aparıb.

Sərəncamda Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

# Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi qeyd ediləcək

2024-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam olur.

Prezident İlham Əliyev 2023-cü il dekabrın 30-da əlamətdar yubileyin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutub, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynayıb. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olub, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapıb. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr verib.

Sərəncamda Naxçıvanın davamlı inkişafında Ümummilli lider Heydər Əliyevin tarixi rolu xüsusi vurğulanır. Diqqətə çatdırılır ki, məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mövcud ictimai-siyasi proseslərinə həlledici təsir göstərib və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırıb.

Bildirilir ki, Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır.

Sərəncamda Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə Xarici İşlər Nazirliyi, Elm və Təhsil Nazirliyi, Diaspora İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

Bundan əlavə, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan MR-də Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə razılaşdırmaqla muxtar respublikanın 100 illiyi ilə bağlı tədbirlər planının hazırlanmasını və həyata keçirilməsini təmin etməlidir.

# Etnik-dini müxtəliflik dövlətçiliyimizin misilsiz nailiyyətidir

Zəngin tolerantlıq ənənələri ilə tanınan Azərbaycanda ayrı-ayrı xalqların və dinlərin mənsubları yüz illərdir ki, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar. Biz cəmiyyətimizin üstün keyfiyyətlərindən olan etnik-dini müxtəlifliyi dövlətçiliyimizin misilsiz nailiyyəti kimi qiymətləndirir, humanizm və dözümlülük prinsiplərinə əsaslanan mütərəqqi ictimai dəyərlərin təbliği və təşviqini dövlət siyasətimizin prioritet istiqamətlərindən biri hesab edirik.

Bu fikirlər Prezident İlham Əliyevin Milad bayramı münasibətilə Azərbaycanın xristian icmasına təbrik müraciətində yer alıb.

"Təqdirəlayiq haldır ki, xristian həmvətənlərimiz nümunəvi dövlət-din münasibətlərinin yaratdığı geniş imkanlardan yararlanaraq özünəməxsus adət-ənənələri, dil və mədəniyyəti yaşadır, ölkəmizdə həyata keçirilən böyük quruculuq işlərində, ictimai-siyasi həyatın bütün sahələrində digər etiqadların nümayəndələri ilə birlikdə yaxından iştirak edirlər", – deyə müraciətdə bildirilir.

# Prezident seçkilərində yeddi namizəd iştirak edəcək

əvvəli səh. 1-də



Yanvarın 6-da namizədliyi özü tərəfindən irəli sürülən Zahid Oruc və Milli Cəbhə Partiyasının namizədi Razi Nurullayevin namizədliyi ilə bağlı qərar verilib.

MSK-nın yanvarın 9-da keçirilən iclasında isə Qüdrət Həsənquliyev (Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının namizədi), Fazil Mustafa (Böyük Quruluş Partiyası), Elşad Musayev (Böyük Azərbaycan Partiyası) və namizədliyi özü tərəfindən irəli sürülmüş Fuad Əliyev növbədənkənar prezident seçkilərində namizəd kimi qeydə alınıb.

İclasda fevralın 7-nə təyin edilmiş seçkilərlə əlaqədar ölkə hüdudlarından kənarda səs verən seçicilərin seçici siyahılarına alınması məqsədilə seçki dairələrinin siyahısının təsdiq olunması məsələsinə də baxılıb və müvafiq seçki dairələri müəyyən edilib.

Beynəlxalq müşahidə missiyası təmsilçisi, prezidentliyə namizədin və namizədi qeydə alınmış siyasi partiyaların səlahiyyətli nümayəndələri, məşvərətçi səs hüquqlu komissiya üzvü, xüsusi icazə almış müşahidəçi və media qurumları nümayəndələrinin iştirak etdiyi iclasda həmçinin bəzi dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib və cari məsələlərə baxılıb.

# "Təcrübəmizi bölüşür, sizdən də öyrənirik"

## Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Azərbaycana ilk dəfə rəsmi səfər edib

əvvəli səh. 1-də



2023-cü ilin dekabr ayında Dubayda COP28 Konfransı zamanı görüşdüklərini xatırladan dövlətimizin başçısı bu mötəbər tədbirin uğurla keçirilməsi münasibətilə həmkarını təbrik edib: "COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar verdiyiniz dəstəyə görə bir daha minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edərək BMT Təhlükəsizlik Şurasındakı mövqeyinizə görə, Azərbaycana verdiyiniz dəstəyə görə Sizə bir daha xüsusi minnətdarlığımı bildirmək istəyirəm", – deyə İlham Əliyev bildirib.

Azərbaycan Prezidenti daha sonra deyib: "Bu gün bir çox önəmli sənədlər imzalanmışdır, bir azdan sonra sənədlərin mübadiləsi mərasimi keçiriləcək. Əminəm ki, bu sənədlər gələcək əməkdaşlığımız üçün çox güclü zəmin yaradacaq.

Əməkdaşlığımız çoxşaxəlidir, bir çox sahələri əhatə edir və yaxın keçmişdə enerji sahəsində, xüsusilə yaşıl enerji sahəsində



çox önəmli addımlar atılmışdır. Keçən ilin oktyabr ayında Azərbaycanda 230 meqavat gücündə günəş elektrik stansiyasının açılışı olmuşdur. Bu stansiyanın yaradılması ölkənizin investisiyaları hesabına mümkün olmuşdur. Bu, sadəcə olaraq, birinci addımdır. İmzalanmış kontraktlar və anlaşma memorandumları əsasında Sizin ölkənizin sərmayələri hesabına Azərbaycanda 10 qiqavat yaşıl enerji istehsalı nəzərdə tutulur.

Keçən ay Bakıda daha iki önəmli sənəd imzalanmışdır. Onlardan biri – Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında imzalanmış sənəd əsasında bir milyard dollarlıq maliyyə imkanı olan Birgə İnvestisiya Fondu yaradıldı. İkinci önəmli sənəd informasiya-kommunikasiya sektoruna aiddir.

Biz bunu çox yüksək qiymətləndiririk, çünki Sizin ölkəniz Sizin rəhbərliyinizlə çox böyük uğurlara imza atıb, dünyanın ən inkişaf etmiş, ən uğurlu ölkələrindən birinə çevrilib. Bilirəm ki, bir çox ölkələr üçün Sizin uğurlu təcrübəniz bir nümunədir.

Əminəm ki, Sizin səfəriniz bizim strateji tərəfdaşlığımızı möhkəmləndirəcək, xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərini daha da gücləndirəcək".

***

Prezident Şeyx Məhəmməd bin Zayed əl-Nəhyan Azərbaycana səfər etməkdən böyük məmnunluq duyduğunu vurğulayıb: "Xüsusən də dünən rəsmi ziyafət zamanı bizim apardığımız danışıqlar və iki ölkə arasında əlaqələrin perspektivinə dair əldə etdiyimiz razılaşmalar sevindiricidir. Cənab Prezident, Sizin dövlətinizə, Sizin xalqınıza uğurlu il arzu edirəm".

Birləşmiş Ərəb Əmirliklərinin rəhbəri Bakıya səfəri zamanı imzalanan ikitərəfli sənədlər arasında Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunu xüsusi qeyd edib: "Bu anlaşma memorandumu ilə ölkələrimiz arasındakı əlaqələr strateji əhəmiyyət kəsb edir. Ticarət, iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, mədəniyyət və təhsil sahələrində də əlaqələrimizin və əməkdaşlığımızın inkişafı istiqamətində səylərimizi səfərbər edəcəyik.

İki ölkə arasında münasibətlər yüksələn xətt üzrə inkişaf edir və biz müxtəlif sahələrdə daimi tərəqqi və uğurun şahidi oluruq. Biz də Birləşmiş Ərəb Əmirliklərində iki ölkə arasında ölkələrimizin və xalqlarımızın rifahı naminə müxtəlif sahələrdə əməkdaşlığın inkişafına hazırıq.

Qeyd etdiyiniz kimi, münasibətlərimizin inkişafı öz başlanğıcındadır. Biz də öz növbəmizdə ölkələrimiz arasında münasibətlərin daha da gücləndirilməsi və yeni körpülərin yaradılması istiqamətində səylərimizi səfərbər edirik".

Şeyx Məhəmməd bin Zayed əl-Nəhyan bu il Azərbaycanın COP29 tədbirinin keçirilməsi ilə bağlı seçilməsi münasibətilə Prezident İlham Əliyevə bir daha təbriklərini çatdırıb: "Bu da öz növbəsində bütün dünyanın Azərbaycana etimadının bir təzahürüdür və bu münasibətlə Sizə uğurlar arzulayıram. Keçən dəfə Dubayda görüşdüyümüz zaman qeyd etdiyimiz kimi, əlbəttə, Azərbaycan bu kimi mötəbər tədbirlərin keçirilməsinə qadirdir və hazırdır.

Cənab Prezident, qonaqpərvərliyə, səmimi qəbula və xüsusən də dünən iki saatdan artıq keçirdiyimiz gözəl vaxta görə, – həqiqətən, bu iki saat ərzində mən bizim görüşümüzdən çox həzz aldım, – Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Cənab Prezident, dünən də qeyd etdiyim kimi, Birləşmiş Ərəb Əmirliklərinin bütün təcrübəsi, hesab edin ki, Sizin əlinizdədir. Hər bir sahədə biz öz təcrübəmizi Sizinlə bölüşməyə, xüsusən də COP29-un keçirilməsində öz təcrübəmizi Sizinlə paylaşmağa hazırıq.

Bildiyiniz kimi, Birləşmiş Ərəb Əmirliklərinin bir çox sahədə böyük təcrübəsi var. Biz də sizin kimi qardaş ölkələrlə bu təcrübəni paylaşmağa, bölüşməyə hər zaman hazırıq. Amma bəzi məqamlar, bəzi sahələr var ki, o sahələrdə biz də öyrənirik".

***

Sonra səfər çərçivəsində imzalanmış sənədlərin mübadiləsi mərasimi olub.

Qeyd edək ki, səfər çərçivəsində "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu", eləcə də iki ölkənin Maliyyə nazirlikləri, Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İqlim Dəyişmələri və Ətraf Mühit Nazirliyi, Azərbaycanın Energetika Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin İnvestisiya Nazirliyi arasında, ADA Universiteti ilə Anvar Qarqaş Diplomatik Akademiyası, ADNOC və SOCAR şirkətləri arasında müvafiq sənədlər imzalanıb.

Geniş tərkibli görüşdən sonra danışıqlar prezidentlərin təkbətək görüşü əsnasında davam etdirilib.

# Bu il Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar

Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilmişdir. Biz şəhərlərimizi, kəndlərimizi yenidən qururuq və artıq bu il 5 minə yaxın keçmiş köçkün öz doğma torpaqlarına qayıtmışdır.

2023-cü ilin mart ayında – Novruz bayramı ərəfəsində Talış kəndində bayram sevinci yaşandı, köçkünlər öz doğma evlərinə qayıtmışdılar. Avqust ayında Füzuli şəhəri və Zabux kəndi bayram içində idi. Bu il Laçın şəhərinə Müstəqillik Gününü qeyd edərkən köçkünlər qayıtmışdır – 28 May tarixində Laçında böyük bayram günü idi. Ondan əvvəl, Zəngilan rayonunun Ağalı kəndində köçkünlər məskunlaşıb və beləliklə, beş yaşayış məntəqəsində indi həyat bərpa edilib.

2024-cü ildə bir neçə yaşayış məntəqəsinə keçmiş köçkünlər, qaçqınlar qayıdacaqlar. Bu müjdəni mən bu gün onlara vermək istəyirəm və bildirmək istəyirəm ki, il ərzində Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa edilib keçmiş köçkünlərin sərəncamına veriləcək. Eyni zamanda, il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar.

Prezident İlham Əliyev bunu Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bildirib.

Dövlət başçısı vurğulayıb ki, 2024-cü ildə bir neçə yaşayış məntəqəsi də keçmiş köçkünləri qəbul etməyə hazır olacaq.



"Biz bu torpaqların sahibləri qurub-yaradanıq. Biz qurub-yaradan xalqıq" deyən Prezident İlham Əliyev bildirib ki, bu gün bütün dünya azərbaycanlıları haqlı olaraq müstəqil Azərbaycanla fəxr edirlər. Artıq üç ildir ki, dünya azərbaycanlıları bütün Azərbaycan xalqı kimi ruh yüksəkliyi ilə yaşayır, başını dik tutub yaşayır, alnıaçıq, üzüağ yaşayırlar.

# Papa Azərbaycanı və Ermənistanı sülh müqaviləsi imzalamağa çağırıb



Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransisk Azərbaycan ilə Ermənistan arasındakı sülh prosesinin əhəmiyyətindən danışıb.

Yanvarın 8-də Papa Fransisk Müqəddəs Taxt-Tacda akkreditə olunmuş diplomatik korpusun rəhbərləri üçün təşkil edilən ənənəvi illik tədbirdə çıxış edib. O, Vatikanın 2023-cü ildəki fəaliyyəti, habelə 2024-cü il üzrə hədəfləri barədə məlumat verib, həmçinin dünyada baş verən proseslərə dair fikir və çağırışlarını səsləndirib.

Cənubi Qafqaz regionundakı vəziyyətə toxunan katoliklərin ruhani lideri tərəfləri sülh müqaviləsini imzalamağa çağırıb. O, bölgənin sakinlərinin çətin humanitar vəziyyəti ilə bağlı həll yolu tapmaq, köçkünlərin öz evlərinə qanuni və təhlükəsiz şəkildə qayıtmasını təşviq etmək, orada müxtəlif dini icmalara məxsus ibadət yerlərinə hörmətlə yanaşmağın vacibliyini vurğulayıb. Deyib ki, bu addımlar çox arzulanan sülh baxımından iki ölkə arasında etimad mühitinin yaradılmasına kömək edəcək.

Ölkəmizin Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarov isə Papa Fransiskə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və təbrikini çatdırıb, Roma Papasını ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyasında iştiraka dəvət edib.

# Azad edilmiş ərazilərə köçən 1138 nəfərin məşğulluğu təmin olunub

627 min keçmiş məcburi köçkünün (167 773 ailə) FİN əsaslı siyahısı alınıb, təhlili aparılıb.



Bunu Dövlət Məşğulluq Agentliyi İdarə heyətinin sədri Mustafa Abbasbəyli yanvarın 9-da keçirdiyi brifinqdə bildirib. Onun sözlərinə görə, ilkin mərhələdə işğaldan azad edilmiş ərazilərə köçürülməsi nəzərdə tutulan 129,3 min nəfərin adlı siyahısı üzrə təhlillər aparılıb.

Qeyd edilib ki, artıq köç etmiş şəxslərdən 1138 nəfərin məşğulluğu təmin edilib. İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən 250-dən çox işəgötürənlə əlaqələr qurulub, 70-dək işəgötürənin kadr ehtiyaclarının ödənilməsinə dəstək göstərilib, 2 işəgötürənin əməkdaşlarının əməkhaqları birgə maliyyələşdirilib.

Həmçinin postmüharibə dövründə şəhid ailə üzvləri və müharibə iştirakçılarından ibarət 20 596 şəxsin aktiv məşğulluq proqramlarına, o cümlədən 10 354 şəxsin özünüməşğulluq proqramına cəlb edildiyi qeyd olunub.

# Bakı qarşıdakı illərdə necə dəyişəcək?

## 2040-cı ilədək Baş planda nələr nəzərdə tutulub?



*əvvəli səh. 1-də*

Regional Mərkəzlər – Mərkəzi Bakının regional analoqları rolunu oynayaraq öz təsir dairəsinə daxil olan ərazilərdə yüksək səviyyəli şəhər xidmətlərinin göstərilməsini təmin edəcək. Bu mərkəzlərin şəhərin genişlənməsi və ya əhali artımı üçün kifayət qədər ərazi imkanlarına malik olması nəzərdə tutulur.

Alt-mərkəzlər isə Mərkəzi Bakının hüdudlarında yerləşən strateji əhəmiyyətli mərkəzlər olaraq periferiyanın müxtəlif istiqamətlərindən şəhər mərkəzinə doğru giriş qapıları rolunu oynayacaq. Bu ərazilər və əsas şəhər mərkəzi arasında əlaqə effektiv ictimai nəqliyyat sistemi və magistral yollar vasitəsilə təmin ediləcək.

### Mərkəzi Bakı

Baş plana əsasən, Əsas Şəhər Mərkəzi (Mərkəzi Bakı) təqribən 16 860 ha sahəni əhatə edir. Ərazi şimaldan cənuba 16 km, şərqdən qərbə 20 km məsafədə uzanır. Buraya Bakının altı inzibati şəhər rayonu olan Səbail, Yasamal, Nəsimi, Nərimanov, Nizami və Xətai rayonları daxildir. Bundan əlavə, mərkəzin ərazisinə Lökbatan, Badamdar, Xocəsən, Biləcəri, M.Ə.Rəsulzadə, Sabunçu, Bakıxanov və Qaraçuxur qəsəbələrinin bir hissəsi də daxildir. Mərkəzi Bakı adlandırılan əraziyə Bakı şəhərinin Baş planı çərçivəsində əsas inkişaf əraziləri olaraq müəyyən olunmuş göl və gölətrafı ərazilər də daxil edilib.

Mərkəzi Bakının əhatə dairəsinə gələcək metro şəbəkəsinin əhatə edəcəyi ərazi və əsas inkişaf əraziləri daxildir. Qaraçuxur qəsəbəsinin Mərkəzi Bakıya daxil edilməsinin səbəbi onun çox hissəsinin şəhərdaxili ərazilərə xas tikinti sıxlığına sahib olması və qəsəbə ərazisinin metro sistemi ilə əlaqələndirilməsi ilə bağlı perspektiv planların olmasıdır. Qəsəbə topoqrafik məhdudiyyətlərə görə şərq və cənub hissəyə bölündüyü üçün Mərkəzi Bakı ilə funksional əlaqələr üstünlük təşkil edir.

### İki regional mərkəz və dörd alt-mərkəz

Şəhər ərazisində iki regional mərkəzin yaradılması nəzərdə tutulur.

Mərdəkan – Bakının şərqində yerləşən qəsəbə özünün kənd tipli məntəqə xarakterini qoruyub saxlayacaq. Fərdi evlər olan orta sıxlıqlı ərazilərdəki boş torpaq sahələri nöqtəvi inkişaf konsepsiyası əsasında inkişaf etdiriləcək.

Ələt – Bakının cənub hissəsində Azad İqtisadi Zona ətrafında yaranacaq yüksək sıxlıqlı yaşayış ərazilərindən ibarət yeni iqtisadi mərkəz olacaq.

Həmçinin dörd alt-mərkəzin yaradılması planlaşdırılır.

Zığ və Hövsan – Bakının şərqində şəhər qapısı rolu oynayan, orta sıxlıqlı yaşayış məhəllələri, sahilyanı yaşayış məntəqələri və istirahət məkanlarının birgə inkişaf etdiriləcəyi ərazi kimi nəzərdə tutulur.

Sabunçu – çoxfunksiyalı (qarışıq-istifadə təyinatlı) yaşayış ərazilərindən ibarət hava limanı şəhəri kimi nəzərdə tutulur. Sabunçu güclü ictimai nəqliyyat əlaqəsinə və əhatə dairəsi hazırda 0,38 milyon nəfər olan xidmət şəbəkəsinə sahibdir;

Binəqədi – şimal qapısı rolunu oynayan, orta sıxlıqlı yaşayış ərazilərindən ibarət mərkəz kimi inkişaf etdiriləcək. Binəqədi alt-mərkəzi şəhərin şimalında Böyükşor gölünün bərpa planı çərçivəsində yaradılan istirahət imkanlarından istifadə etmək imkanı əldə edəcək.

Lökbatan – şəhərin qərb qapısı rolunu oynayan, şərq hissə boyu yaşıl zolağın bir hissəsini təşkil edən logistika (son təyinat mərkəzinə çatdırılma) və istehsal mərkəzi kimi inkişaf etdiriləcək.

### Mərkəzi Planlaşdırma Rayonu – tarixi və mədəni irs

Bakının mərkəzi hissəsinin şəhər simasının qorunaraq inkişaf etdirilməsi üçün Baş plan çərçivəsində Bakının Mərkəzi Planlaşdırma Rayonunun yaradılması təklif olunur. Qeyd edilən rayonun ərazisinə İçərişəhər, onun mühafizə zonası, habelə şəhərin memarlıq abidələrinin əksəriyyətinin yerləşdiyi ərazi daxildir. Tarixi binalarla yanaşı, müasir və əlamətdar binaların da yerləşdiyi Bakının Mərkəzi Planlaşdırma Rayonu özünəməxsus şəhər simasına malik ərazidir. Bu ərazidə Bakının simasını və mədəni irsini təcəssüm etdirən çoxlu sayda qeydiyyata alınmış abidələr və tarixi binalar yerləşir.

Bakının Mərkəzi Planlaşdırma Rayonu inzibati, ticarət və mədəniyyət müəssisələrinin cəmləşməsi ilə səciyyələnən, şəhərin tarixi və bugünkü mərkəzini əhatə etməlidir. Onun aşağıdakı zonalara bölünməsi təklif olunur:

**1.** UNESCO-nun Dünya İrs Siyahısına daxil olan "İçərişəhər" / Mühafizə zonası. Qala şəhərin ətrafındakı mühafizə zonası daxilində hər hansı binanın tikintisinə icazə verilməməlidir.




**2.** "İçərişəhər"in genişləndirilmiş mühafizə zonası. "İçərişəhər"in birbaşa qonşuluğunda olan bu həssas ərazidə aparılacaq gələcək inkişaf fəaliyyətlərinə səlahiyyətli qurumların (Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi, DŞAK, Memarlar İttifaqı) nümayəndələrindən ibarət ekspert heyəti tərəfindən nəzarət edilməlidir. Bu ərazidə tikinti təsdiqləri qeyd edilən ekspert heyətinin razılığı ilə verilməlidir. Binanın tutumu, mərtəbəliliyi, habelə memarlıq layihəsinin keyfiyyəti əsas meyarlar kimi qəbul edilməlidir.

**3.** Tarixi şəhərin genişləndirilmiş mərkəzi. Bu ərazi üçün eynitipli memarlıq və ərazi təşkili səciyyəvidir. Ərazi əsasən yaşayış və inzibati binalar, ticarət obyektləri, mehmanxanalar və infrastruktur obyektlərinin cəmləşdiyi qarışıq istifadə olunan şəhər strukturuna sahibdir. Burada həyata keçiriləcək inkişaf fəaliyyətlərində şəhərsalma kontekstinə uyğun yenidən qurulmuş tarixi binalarla nöqtəvi şəkildə inşa olunan müasir binaların vəhdəti nəzərə alınacaq.

### Sənaye sahələri köçürüləcək

Baş planda ətraf mühit baxımından zərərli olan mövcud neft-kimya məhsullarının istehsalı müəssisələrinin (təqribən 510 ha) Bakının mərkəzindən kənara köçürülməsi və müvafiq şəkildə zonalaşdırılması təklif edilir. Qeyd edilir ki, Səngəçal və Ələt ağır sənaye sahələrinin yerləşdirilməsi üçün əlverişlidir.

Planda Bakının neft sənayesi, neft sənayesinin tarixi, bu sahədəki ixtiralar və onların dünya təcrübəsinə təsirlərinin nümayiş etdiriləcəyi və eyni zamanda neft sənayesinin və neft sənayesi ilə əlaqədar sahələrin gələcəyi haqqında maarifləndirici materialların təqdim ediləcəyi "Mədəni və sənaye irsi əyləncəli-təhsil Parkı"nın yaradılması təklif edilir.

2040-cı il üçün piyada yolları şəbəkəsi Bakı Mərkəzi Planlaşdırma Rayonunun şimal hissəsindəki dar (yaşayış) küçələr avtomobil nəqliyyatından azad sakit ərazilərə çevriləcək. Arterial küçələr kimi təsnif olunmayan küçələrdə sürət həddinin 30 km/saat müəyyən edilməsi nəzərdə tutulur. 2040-cı ilə qədər sürət həddi 30 km/saat müəyyən edilən küçələrin uzunluğu təqribən 4,1 km artaraq ümumilikdə 11,5 km-ə çatacaq.

### Metro şəbəkəsi iki dəfə artır, tramvay geri qayıdır

2040-cı ilədək "28 May" stansiyasının yenidən qurulması daxil olmaqla metro xətləri şəbəkəsinin ümumi uzunluğunun hazırkı 36,6 km-dən 73,4 km-ə, stansiyaların sayının isə 25-dən 46-ya çatdırılması planlaşdırılır. Bu vaxtadək dairəvi metro şəbəkəsinin tamamlanması, "28 May"-"Cəfər Cabbarlı" keçid stansiyasında yaşıl və qırmızı xətlərin bir-birindən ayrılması da Baş plandakı proqnozlardır.

Bundan əlavə, Bakıda tramvay və metrobus ictimai nəqliyyat növləri yaradılacaq. Qeyd olunur ki, hazırda şəhər ərazisində çoxlu sayda istifadə olunmayan dəmir yolu təhkim zolağı və istifadə olunmayan yük xətləri var. Tramvay-elektrik qatarı sisteminin tətbiqində mövcud və yenidən qurulan dəmir yolu infrastrukturunun imkanlarından istifadə oluna bilər. Proqnozlara görə, yaradılacaq tramvay şəbəkəsi 1-ci mərhələdə (2027-ci il) 17 km uzunluğunda (26 dayanacaq) olacaq. 2040-cı ildə isə 56 km-ə (78 dayanacaq) çatacaq.

Xatırladaq ki, Bakıda ötən əsrin 20-ci illərində istifadəyə verilən tramvay xətləri 90-cı illərdə ləğv olunub. Tramvaya nisbətən cavan olan trolleybus (gələcəkdə metrobus) da ömrünü 90-cı illərdə başa vurub.

2027-ci ilin sonunadək Bakı və Sumqayıt şəhərlərini birləşdirən yeni magistral avtomobil yolunun inşası da nəzərdə tutulub. Xırdalan və "20 Yanvar" dairələrində nəqliyyat sıxlığının qarşısının alınması, Xırdalan şəhərinin alternativ giriş-çıxış yolunun yaradılması məqsədilə M-1 və M-4 avtomobil yollarını Sulutəpə və Xocəsən qəsəbələrindən keçməklə Yasamal rayonu ərazisində "Xarici Dairəvi Yol" ilə birləşdirən paytaxtın strateji 2-ci şimal-qərb yeni giriş-çıxış yolunun yaradılması planlaşdırılıb.



### Kurort turizmi, velosiped yolları

Baş planda Bakıda kurort turizminin inkişafı üçün təxminən 169,8 ha yeni inkişaf ərazisi ayrılıb. Yeni ictimai çimərliklərin inkişafı üçün isə təxminən 314,6 ha ərazi müəyyən edilib.

Bakı şəhəri üzrə 2040-cı ilədək velosiped zolaqları/yolları şəbəkəsinin ümumi uzunluğunun təxminən 285 km təşkil edəcəyi planlaşdırılır. Bu müddətdə parklar, idman məkanları və buna bənzər mərkəzi ərazilər arasında avtomobil yolları boyu velosiped zolaqlarının çatışmayan hissələrinin tamamlanması, üç əsas həlqəvi şəbəkədən ibarət velosiped şəbəkəsinin yaradılması, mümkün yerlərdə avtomobil yolları boyu uzanan velosiped zolaqlarının genişləndirilməsi, turizm və istirahət məqsədli velosiped nəqliyyatı imkanlarının genişləndirilməsi nəzərdə tutulur.

Xocəsən gölünün yaxınlığında əsas yerli bitki növlərinin yetişdiriləcəyi və köçəri su-bataqlıq quşlarının miqrasiya məskəni olacaq yeni Nəbatat Parkının yaradılması da planda var. Böyük şəhər parkı tipinə aid edilən Xocəsən gölü ətrafındakı parkda mövsümi və ya müvəqqəti tədbirlər, avarçəkmə klubu kimi daimi fəaliyyətlər üçün imkanlar yaradıla bilər. Yeni Xocəsən gölü parkının sakit və rahat atmosferində və yerli alt mərkəzin yaxınlığında müasir təhsil mərkəzinin yaradılması da planlara daxildir.

Baş planda qeyd olunub ki, Böyükşor gölünün böyük şəhər parkı (təqribən 388,8 ha), yeni yaşayış, işləmək və istirahət etmək üçün özünəməxsus bənzərsiz ərazi kimi formalaşmasını təmin etmək üçün pilləli inkişaf yanaşması tətbiq edilməlidir. Böyükşor gölünün bərpası planına gölə atılan sənaye mənşəli tullantı sularının və kanalizasiya sularının təmizlənməsi daxildir.

### Baş planın maliyyəti

2040-cı ilədək Bakı şəhərinin inkişafı üçün ümumilikdə 93,6 milyard manat məbləğində vəsait tələb olunur. Baş plana əsasən, bu vəsait 5 istiqamətdə tədbirlərin həyata keçirilməsinə yönəldiləcək. Şəhər ərazisinin inkişafı üçün 47,6 milyard manat, nəqliyyat infrastrukturunun inkişafı üçün 16,9 milyard manat, mühəndis-kommunikasiya sistemlərinin inkişafı üçün 15,32 milyard manat, bərpa olunan enerji mənbələrinin inkişafı üçün 4,3 milyard manat və ətraf mühitin qorunması tədbirləri üçün 9,5 milyard manat məbləğində vəsait tələb olunur.

Qeyd edilir ki, bu vəsaitin 60,5 milyard manatı dövlət, 33,6 milyard manatı isə özəl investisiyalar hesabına qarşılanacaq.

# Film layihələri müsabiqəsi ilə bağlı Apellyasiya komissiyasının ilk iclası

Xəbər verdiyimiz kimi, ölkədə kino sahəsinin inkişafının dövlət tərəfindən dəstəklənməsi, kinematoqrafiya fəaliyyətinin təşviq edilməsi və yerli kinematoqrafçıların təcrübəsinin artırılması, milli-mənəvi və ümumbəşəri dəyərləri təbliğ edən filmlərin istehsalına nail olunması, eləcə də bu sahədə özəl sektorun dəstəklənməsi məqsədilə Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) tərəfindən ötən il iyulun 18-dən noyabrın 29-dək keçirilmiş film layihələri müsabiqəsinin nəticələri elan olunub.

Kinematoqrafiya sahəsində fəaliyyət göstərən müstəqil prodüser mərkəzləri və digər hüquqi şəxslər tərəfindən dövlət sifarişi, kommersiya, müəllif (sənət), debüt və tələbə filmləri kateqoriyaları üzrə layihələrin təqdim edildiyi müsabiqədə seçilməmiş, lakin ssenarilərin inkişaf proqramına yönləndirilmiş layihələrlə bağlı ARKA-nın nəzdində Ssenari laboratoriyası yaradılıb, tanınmış türkiyəli rejissor və ssenarist Semih Kaplanoğlunun rəhbərliyi ilə dekabrın 11-dən 25-dək sözügedən layihələrin ssenarinin inkişaf proqramı çərçivəsində müzakirələri həyata keçirilib.

Eyni zamanda müsabiqənin nəticələri ilə bağlı narazılığı olan iştirakçılar üçün Apellyasiya komissiyası yaradılıb.

Yanvarın 8-də Apellyasiya komissiyasının ilk iclası keçirilib.

Komissiya üzvləri Apellyasiya komissiyasına təqdim olunan layihələrlə bağlı fikir və təkliflərini səsləndiriblər. Bəzi layihələrin təkmilləşdirilməsi, rejissor işi ilə bağlı təkliflərin verilməsi, əlavə və dəyişikliklərin labüdlüyü diqqətə çatdırılıb.

İclasda komissiyanın növbəti toplantısının yanvar ayının ikinci ongünlüyündə keçirilməsi ilə bağlı qərar qəbul olunub.

# "Rəssamın Xəzər və Normandiyadan baxışları"

## Parisdə Adil Rüstəmovun xatirəsinə həsr olunan sərgi



Yanvarın 7-də Parisdəki "Said Ismailoff" qalereyasında Əməkdar rəssam Adil Rüstəmovun (1943–2018) xatirəsinə həsr olunmuş "Rəssamın Xəzər və Normandiyadan baxışları" adlı sərgi açılıb.

Xəzər Araşdırmaları Mərkəzinin təşkilatçılığı ilə reallaşan sərgidə mərhum rəssamın müxtəlif üslub və mövzuda 40-a yaxın əsəri nümayiş olunur. Əsərlər müəllifin vətəni Azərbaycanı və həyatının bir dövrünü keçirdiyi Fransanın Normandiya bölgəsini əks etdirir.

Sərginin açılışında rəssamın nəvəsi Adel Naibova çıxış edərək Adil Rüstəmovun yaradıcılığından danışıb. Bildirib ki, o, dəfələrlə respublika və beynəlxalq sərgilərdə iştirak edib, bir sıra mükafatlara layiq görülüb, sənətin sirlərini gənclərə öyrədib.

Qeyd edək ki, Adil Rüstəmov 2012-ci ildə Fransanın Normandiya bölgəsində yaşayan qızının yanına köçmüşdü. Vəfatından 10 gün əvvəl 75 illik yubileyini qeyd edən rəssam qəzetimizə müsahibəsində demişdi: "Yubileyimi ölkəmdən kənarda qeyd etsəm də, ürəyim hər zaman Azərbaycanladır. Burada çəkdiyim əsərlərin hamısı Qarabağ və Normandiya mövzularıdır. Cismən vətəndən uzaq olsam da, qəlbən Bakıdayam, Abşerondayam...".

Sərgi yanvarın 15-dək davam edəcək.

**Lalə**

# Azərbaycan Yüksəliş Forumu keçirilib

Yanvarın 8-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Yüksəliş Forumu keçirilib. Forum "Yüksəliş" müsabiqəsi iştirakçılarının təşəbbüsü ilə müsabiqənin yaratdığı müsbət trendləri müzakirəyə çıxarmaq, onun davamlılığını təmin etmək və perspektivli idarəçi kadrlar arasında peşəkar əlaqələri daha da inkişaf etdirmək məqsədilə təşkil olunub.




Forumda birinci, ikinci və üçüncü "Yüksəliş" müsabiqələrinin 7 nəfər qalibinin çıxışları dinlənilib, "Güclü Azərbaycan və insan kapitalı" mövzusunda panel müzakirələri aparılıb.

Müzakirələr zamanı rəqəmsal transformasiya, dördüncü sənaye inqilabı, təhsil sahəsində islahatlar, xarici investisiyanın ölkəyə cəlb olunması, təbii sərvətlərdən gələn gəlirin toplanması, saxlanması və gələcək nəsillər üçün səmərəli istifadə olunması istiqamətində atılan uğurlu addımlar, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının dirçəldilməsi məqsədilə kadrların cəlb olunmasıvə s. mövzulara toxunulub.

Forumun sonunda "Yüksəliş" müsabiqəsi iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi kursunun davamına dəstək məqsədilə bəyanat qəbul ediblər. Bəyanatda bildirilib ki, Prezident İlham Əliyevin 2004-cü ildə dediyi "Biz "qara qızıl"ı insan kapitalına çevirməliyik" şüarı artıq Azərbaycan reallığıdır. Müasir dünyada hər bir ölkənin uğurlu inkişafını onun intellektual potensialı müəyyən edəcək. Odur ki, təhsilə qoyulan vəsait ölkənin gələcəyinə, müstəqilliyinə, təhlükəsizliyinə qoyulan vəsaitdir. Azərbaycanın əsas gücü onun intellektual potensiala, zamanın tələbinə uyğun müasir bacarıqlara və yüksək vətənpərvərliyə malik olan vətəndaşlarıdır.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi ölkə başçısının 26 iyul 2019-cu il tarixində imzaladığı sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

# Mədəniyyət naziri İsmayıllıda vətəndaşları qəbul edəcək

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli tərəfindən yanvarın 12-də saat 10:00-da İsmayıllı şəhəri Heydər Əliyev Mərkəzində (Heydər Əliyev prospekti 57) vətəndaşların qəbulu keçiriləcək.

Qəbulda İsmayıllı, Ağsu, Qobustan və Şamaxı rayonlarından olan vətəndaşların müraciət və təklifləri dinləniləcək.

# Bir ildə Qəbələ qoruğunun nə qədər ziyarətçisi olub?

Ötən il Qəbələ Dövlət Tarix-Bədii Qoruğuna 3544 yerli və xarici turist səfər edib. Bu barədə qoruğun direktoru Zahir Kərimov məlumat verib.



Bildirilib ki, qoruğu ziyarət edənlərin 2607-si yerli, 937-si isə xarici ölkə vətəndaşı olub. Əcnəbi ziyarətçilər arasında Polşa, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, İngiltərə, Ukrayna, Latviya, ABŞ və Türkiyədən gələnlər üstünlük təşkil edib.

Qoruğu ziyarət edənlərə burada aparılmış arxeoloji qazıntılar, SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşkilatçılığı və maliyyə dəstəyi ilə qoruq ərazisində görülən işlər barədə məlumat verilib. Ziyarətçilər Qəbələ Arxeoloji Mərkəzinin sərgi salonunda nümayiş olunan eksponatlarla da tanış olublar. Əməkdaşlar tərəfindən Azərbaycan, rus və ingilis dillərində ekskursiya xidmətləri göstərilib.

# Ağdamda maarifləndirici tədbir

Ağdam rayon Heydər Əliyev Mərkəzində "Pis vərdişlərə yox deyək!" mövzusunda tədbir keçirilib.



Əvvəlcə qonaqlar mərkəzdə Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərində çəkilmiş fotoşəkillərlə tanış olublar.

Daha sonra tədbir dəyirmi masa arxasında davam etdirilib. Heydər Əliyevin və şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Çıxışlarda zərərli vərdişlərin insan sağlamlığına mənfi təsirləri haqqında danışılıb.

Tədbirin sonunda narkomaniya və onun törətdiyi fəsadlardan bəhs edən videoçarx nümayiş etdirilib.

# Azərbaycanda albanşünaslığın tarixinə dair kitab

AMEA-nın A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun baş direktoru tarix elmləri doktoru, professor Kərim Şükürovun "Azərbaycan albanşünaslığının (Qafqaz) tarixinə dair" adlı kitabı işıq üzü görüb.



Azərbaycan, ingilis və rus dillərində hazırlanan kitabın elmi redaktoru tarix üzrə fəlsəfə doktoru Ülviyyə Hacıyevadır.

Qafqaz Albaniyasının dünya üzrə tədqiqinin xronoloji əsasda tərtib olunduğu kitabda illərin daxilində araşdırma əsərlərinin yazıldığı dillər əsas götürülüb, müvafiq dillər daxilində əsərlər əlifba sırası ilə verilib.

Kitab Qafqaz Albaniyasına dair tədqiqat aparan mütəxəssislər, ümumiyyətlə, bu qədim Azərbaycan dövlətinin tarixinə maraq göstərənlər üçün faydalı mənbədir.

# Dünya Qoruqlar və Milli Parklar Günü

## "Açıq qapı" aksiyası olacaq

11 yanvar Dünya Qoruqlar və Milli Parklar Günüdür. 1917-ci il yanvarın 11-də dünyada ilk dəfə Rusiyada nadir heyvanların qorunması məqsədilə Baykal gölü üzərində Barquzin qoruğu yaradılıb. Əlamətdar gün, Dünya Vəhşi Təbiət Fondunun təşəbbüsü ilə 1997-ci ildən etibarən qeyd olunur.



Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, ölkəmizdə 10 milli park və 10 dövlət təbiət qoruğu fəaliyyət göstərir. Milli parklar Abşeron yarımadasında, ölkənin şimal, cənub və qərb hissəsində yerləşməklə rəngarəng biomüxtəliflik və landşaft komplekslərini əhatə edir.

İlisu Dövlət Təbiət Qoruğunun milli parka çevrilməsi istiqamətində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən işlər görülür. Qobustanda palçıq vulkanlarının olduğu ərazilərdə geoloji parkların yaradılması planlaşdırılıb və həmin istiqamətdə tədbirlər davam etdirilir.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində vaxtilə 4 qoruq, 2 milli park mövcud olub. Hazırda onların bərpası da prioritet məsələlərdən biridir.

Dünya Qoruqlar və Milli Parklar Günü ilə əlaqədar milli parklarda "açıq qapı" aksiyası olacaq. "Açıq qapı" günü ziyarətçilər Azərbaycanın müxtəlif bölgələrində yerləşən milli parklara gəlməklə burada füsunkar təbiət ərazilərindən zövq ala bilərlər.

# "Xalqın mədəni sərvəti"

## Klassik mədəni irsin təbliği məqsədilə layihə həyata keçirilir

Xəbər verdiyimiz kimi, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsi və Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə "Xalqın mədəni sərvəti" adlı layihə keçirilir.



Əsas məqsəd regionlarda Azərbaycan klassik nümunələrini təbliğ etmək, milli-mənəvi dəyərlərimizi, folklor musiqisini müasir gəncliyə çatdırmaqdır.

Layihə çərçivəsində 8-14 yanvar tarixlərində dünyaşöhrətli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatı laureatı Fikrət Əmirovun (1922-1984) əsərlərindən ibarət "Musiqi paradı" təşkil edilir.

Layihənin birinci günü "Gəncə Mall"da şəhərdə fəaliyyət göstərən F.Əmirov adına 1 nömrəli, Telman Hacıyev adına 2 nömrəli Uşaq musiqi məktəbləri və şəhər Uşaq incəsənət məktəbinin şagirdləri görkəmli bəstəkarın əsərlərini ifa ediblər.



Şagirdlərin rəngarəng çıxışları tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Xatırladaq ki, layihə hər ay yaradıcılığı ilə əbədiyaşarlıq qazanmış bir mədəniyyət və incəsənət xadiminə həsr olunacaq.

# "Vətən mənə oğul desə..."

Lənkəran şəhər Heydər Əliyev Mərkəzində "Tariximiz qürurumuzdur" layihəsi çərçivəsində şəhid Məhəmməd Hüseynovun doğum gününə həsr olunmuş "Vətən mənə oğul desə..." adlı anım mərasimi keçirilib.

Tədbir iştirakçıları əvvəlcə mərkəzin foyesində şəhidin şəxsi əşyaları və fotoşəkillərindən ibarət sərgi ilə tanış olublar.

Mərkəzin direktoru Reyhanə Sadıxova 44 günlük Vətən müharibəsində qəhrəman oğullarımızın göstərdikləri igidliklərdən danışıb. Vurğulanıb ki, dövlətimiz tərəfindən şəhid ailələrinə və qazilərə hər zaman yüksək diqqət və qayğı göstərilir.

Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Ülviyyə Əliyeva bildirib ki, güclü ordu müstəqil dövlətçilik, sabitlik və inkişaf deməkdir. Daha sonra Məhəmməd Hüseynovun xatirəsinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Sonda şəhidin valideynləri tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkür ediblər.

Tədbir məktəblilərin ifasında ədəbi-bədii kompozisiya ilə davam edib.



Qeyd edək ki, M.Hüseynov ötən ilin 19-20 sentyabr tarixlərində Qarabağda həyata keçirilən antiterror əməliyyatları zamanı şəhidlik zirvəsinə ucalıb.

# Tiflisdən Şamaxıya "Ziyayi-Qafqaziyyə"

Azərbaycanın milli mətbuat salnaməsində silinməz iz qoymuş "Ziyayi-Qafqaziyyə" (1880 – 1884) qəzeti ilk dəfə kitab şəklində çap olunub.

Qəzet AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin əməkdaşı mərhum Müştəba Əliyev tərəfindən transfoneliterasiya edilərək lüğət, izah və şərhlərlə kitab halına salınıb.

Kitabın baş redaktoru və ön sözünün müəllifi AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, çapa hazırlayanı və redaktoru Mətbuat tarixi və publisistika şöbəsinin müdiri filologiya elmləri doktoru, professor Vüqar Əhməddir. Rəyçilər akademik Teymur Kərimli, filologiya elmləri doktoru, professor Cahangir Məmmədli və filologiya elmləri doktoru Elçin Mehrəliyevdir.




2014 – 2017-ci illərdə Mətbuat tarixi və publisistika şöbəsinin elmi işçisi vəzifəsində çalışmış Müştəba Əliyev 2013-cü ildə "Ziya", 2017-ci ildə "Təlimül-ətval təhzibül-əxlaq" qəzetlərini ərəb əlifbasından latın qrafikasına çevirib və çap etdirib. "Kəşkül" qəzeti isə onun vəfatı ilə əlaqədar natamam qalıb.

Ədəbiyyat İnstitutu Elmi şurasının qərarı ilə "Elm və təhsil" nəşriyyatında çap olunan toplu 1090 səhifədən ibarətdir.

Qeyd edək ki, qəzet 1879 – 1880-ci illərdə "Ziya" (Tiflis, 76 nömrə), 1880 – 1884-cü illərdə "Ziyayi-Qafqaziyyə" adı ilə (Tiflis və Şamaxı, 107 nömrə) çap olunub. Redaktoru və naşiri Səid Ünsizadə olan qəzetdə Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Səfərəli bəy Vəlibəyov, Aleksandr Çernyayevski və başqaları çıxış ediblər.

# "Qarlar kraliçası və Ayaz ata Tərəkəmə yurdunda"

Ağsu rayonu Gəgəli bələdiyyəsinin "Tərəkəmə yurdu" folklor turizmi məkanında Abbas Mirzə Şərifzadə adına Şamaxı Xalq teatrının "Qarlar kraliçası və Ayaz ata Tərəkəmə yurdunda" adlı Yeni il tamaşası təqdim olunub.

Tamaşanın quruluşu Əbdül Məcidliyə, musiqi tərtibatı Ruslan Adıgözəlova məxsusdur. Musiqiləri Ruslan Adıgözəlov, Leyla Kərimova və Faiq Mirzəyev, rolları Fəridə Xəlilli, Leyla İslamova, Elvin Abdullayev, Xəyal Quliyev, Əbdül Məcidli, Ceyhun Pənahov ifa ediblər.

Gəgəli kəndinin I-IV sinif məktəbliləri tamaşaya baxdıqdan sonra personajların iştirakı ilə viktorina keçirilib. Fərqlənən beş məktəbliyə bələdiyyənin hədiyyələri təqdim olunub. Tamaşanı izləyən və viktorinada iştirak edən bütün məktəblilərə "Tərəkəmə yurdu folklor turizmi məkanı" kitabı verilib. Tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli məktəblilər üçün kitabı imzalayıb.



# Bölgələrdə bayram əhvallı tədbirlər

Bölgələrdə 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bir sıra tədbirlər keçirilib.




Qazax-Tovuz RMİ-nin təşəbbüsü, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Tovuz rayon komitəsinin dəstəyi ilə Tovuz rayon mədəniyyət müəssisələrinin əməkdaşları Yeni il bayramı ilə əlaqədar şəhid ailələrini ziyarət ediblər.

Qazax şəhər 2 nömrəli Uşaq musiqi məktəbi "Dünyaya sülh" adlı tədbir keçirib. Məktəbin müəllim və şagirdləri öz ifaları ilə qonaqlara xoş əhval-ruhiyyə bəxş ediblər. Sonda 2023-cü il ərzində məktəbin tədbirlərində və ictimai işlərində fəal iştirak edən müəllimlər fəxri fərmanla təltif olunublar.

Ağstafa rayon Mədəniyyət Mərkəzi və Ağstafa Gənclər evinin birgə təşkilatçılığı ilə "Qar sevinci" adlı musiqili-əyləncəli Yeni il şənliyi keçirilib. Fərqli üslubda təqdim olunan personajların çıxışı və şən klounlar, Şaxta baba və Qar qız uşaqların böyük marağına səbəb olub.

***



Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunları və DSX-nin Lənkəran şəhərindəki "N" saylı hərbi hissələrində bayram tədbiri keçirilib. Tədbirdə Lənkəran şəhər Mədəniyyət Mərkəzinin özfəaliyyət kollektivləri geniş konsert proqramı ilə çıxış ediblər.

Bayram münasibətilə Dövlət Sərhəd Xidməti Cəlilabad rayonunun Göytəpə şəhərindəki "N" saylı hərbi hissəsində konsert proqramı təşkil olunub. Lənkəran-Astara RMİ-nin Cəlilabad rayonu üzrə böyük mühasibi Elnur Atakişiyev çıxış edərək əlamətdar günlər münasibətilə əsgər və zabitləri təbrik edib. Hərbi vətənpərvərlik ab-havasının hakim kəsildiyi tədbirdə əsgərlərimizin zövqünü oxşayan rəngarəng musiqi nömrələri alqışlarla qarşılanıb.

***



Qubadlı rayon F.Hüseynov adına Mahmudlu kənd Uşaq musiqi məktəbində (müvəqqəti Sumqayıt şəhərində yerləşir) "Biz birlikdə güclüyük!" adlı konsert proqramı təşkil edilib. Konsert proqramında müəllim və şagirdlərin ifasında rəngarəng musiqi nömrələri səsləndirilib. Tədbirin sonunda bir qrup müəllim və şagird fəxri fərmanla təltif olunub.

**Hazırladı: N.Məmmədli**

# "Neoklassika dünyası"

Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında "Neoklassika dünyası" adlı konsert keçirilib.



"RED EVENTS & Distribution ltd" kreativ agentliyinin təşkil etdiyi musiqi axşamında istedadlı pianoçu Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının məzunu, R. Behbudov adına 2 saylı musiqi məktəbinin müəllimi Nigar Əsədullayevanın ifasında "Neoklassika dünyası" adlı proqram təqdim olunub. O, Lüdoviko Eynaudi, Hans Simmer, Maks Rixter və Olafur Arnalds kimi neoklassika ustadlarının fortepiano əsərlərini ifa edib.

Proqramda "May it Be", "Only Time", "Karib dənizinin quldurları" filmindən saundtreklər, məşhur "Una matina", "Songs for Tony" və hazırda neoklassika sırasına daxil olan digər kompozisiyalar yer alıb.

# Filarmoniyada "Yeni adlar"ın daha bir konserti



Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının "Yeni adlar" layihəsi 2023-cü ildə də gənc istedadlara dəstək oldu.

Layihə çərçivəsində ötən ilin axırıncı konsertində (26 dekabr) filarmoniyanın səhnəsi – respublika və beynəlxalq müsabiqələr laureatları Ləman Seyidova (piano), Aytac Kara (violin), Camalə Abdinzadə (piano) və Səxavət Məmmədovun (tar) ixtiyarına verilib.

Gənc istedadları Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (bədii rəhbər və baş dirijor Əməkdar artist Fuad İbrahimov) müşayiət edib.

Proqramda F.Əmirovun "Violin, piano və orkestr üçün ikili konsert", F.Mendelsonun "Piano və orkestr üçün 1 nömrəli konsert" (g-moll, op.25) və H.Xanməmmədovun "Tar və orkestr üçün 2 nömrəli konsert"i səsləndirilib.

# Yusiflə Anna Paris Operasında çıxış edəcəklər

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru Xalq artisti Yusif Eyvazov (tenor) və həyat yoldaşı, Rusiyanın Xalq artisti Anna Netrebko (soprano) yanvarın 16-da və 25-də Paris Operasında "Adrienna Lekuvrör" tamaşasında çıxış edəcəklər.

Tanınmış italyan bəstəkarı Françesko Çileanın əsərində titul partiyanı Anna Netrebko, onun sevgilisi Mauritsio (qraf Moris Saksonski) partiyasını isə Yusif Eyvazov ifa edəcək.

XVIII əsrin ortalarında baş vermiş hadisələrdən, gerçək insanların – "Komedi Fransez"in aktrisası Adrianna Lekuvrör ilə Fransa sərkərdəsi qraf Morits Saksonskinin böyük və faciəvi sevgisi XIX əsrdə Eje Skrib və Ernest Lequvenin eyniadlı dramında yer alıb. 1902-ci ildə librettosu həmin dram əsasında yazılmış opera əsəri tamaşaya qoyulub.



# "Kəpənəksiz opera" – Elçin Əzizovun dəvəti ilə




Fevralın 10-da Moskvanın "Gelikon-opera" musiqili teatrında Böyük Teatrın solisti, Azərbaycanın Xalq artisti Elçin Əzizov unikal proqram təqdim edəcək.

"Kəpənəksiz opera" adlı proqramda vokalçı repertuarındakı partiyaları ifa edəcək, həmçinin öz partiyaları üzərindəki yaradıcılıq işindən, görkəmli rejissor və dirijorlarla əməkdaşlığından söz açacaq.

Teatrın portalında yer alan məlumatda Elçin Əzizovun yaradıcılığı yolundan, onun məşhur "Bakılı oğlanlar" ŞHK komandasında fəaliyyəti, Zalsburq, Bakı və Moskvada vokal məktəbi keçməsi, nəhayət, bu gün dünya opera səhnəsinin ən çox tələb olunan bariton olmasından söz açılır. Diqqətə çatdırılır ki, tanınmış vokalçı Böyük Teatrın səhnəsində İbn-Hakiə (P.Çaykovski, "İolanta"), Eskamilyo (J.Bize, "Karmen"), Qriqori Qryaznoy (N.Rimski-Korsakov, "Çar gəlini"), Skarpia (C.Puççini, "Toska"), Lesko (C.Puççini, "Manon Lesko") və bir çox başqa partiyaların ifaçısıdır.

Elçin Əzizovu "Kəpənəksiz opera" proqramında Konstantin Çudovskinin idarə etdiyi Dövlət Kreml Orkestri müşayiət edəcək.

**Gülcahan**

# Naxçıvanlı kuklaçılar üçün uğurlu il

2023-cü il M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı üçün uğurlu olub. Naxçıvanlı kuklaçılar il ərzində H.X.Andersenin "Qar kraliçası", Ə.Abbasovun "Keçinin qisası", Ə.Qasımovun "İnanmayaq yalanlara", V.Haqverdiyevin "Saçları səməni oğlan" tamaşalarını balaca teatrsevərlərin ixtiyarına veriblər.

Kollektiv Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100, peşəkar milli teatrın yaranmasının 150 illiyi münasibətilə keçirilən qastrol aksiyalarında da iştirak edib. Yaradıcı heyət aksiya çərçivəsində dekabrın son günlərində Salyan Dövlət Kukla Teatrında şair-dramaturq Kəmalə Ağayevanın əsəri əsasında hazırlanan "Tıq-tıq xanım" tamaşasını göstərib. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Şirzad Abutalıbov, quruluşçu rəssamı NMR-in Əməkdar rəssamı Rəfael Qədimov, bəstəkarı Əli Məmmədovdur. Personajları Əfqanə Ələsgərova, İlqar Babayev, İbad Nəbiyev, İlham Babayev, Süleyman Süleymanov, Ulduz Süleymanova və Sənan Abutalıbov canlandırıblar.



Yeni il bayramı günlərində isə naxçıvanlı uşaqlara teatrın repertuarından "Qırmızıpapaq", "Kələkbaz canavar", "Turp" və başqa tamaşalar nümayiş olunub.

Teatrda V.Haqverdiyevin "Qarınqulu ayı balası" və C.Məmmədquluzadənin "Çay dəsgahı" əsərləri əsasında iki yeni tamaşanın hazırlıq işləri də yekunlaşmaq üzrədir.

# Gənc pianoçu İtaliyada festivalda uğur qazanıb



İtaliyanın Albenqa şəhərində məşhur musiqiçi Memorial Maria Silvia Folconun xatirəsinə həsr olunmuş "Citta di Albenga" 36-cı Beynəlxalq Piano Müsabiqəsi keçirilib. Müsabiqədə dünyanın bir çox ölkələrindən onlarla ifaçı iştirak edib.

Gənc pianoçu, T.Quliyev adına 12 nömrəli onbirillik Musiqi məktəbinin məzunu və hazırda Avstriyanın A.Brukner adına Konservatoriyasının İfaçılıq və Musiqi pedaqogikası fakültələrinin tələbəsi, beynəlxalq müsabiqələr laureatı, Qran-pri mükafatçısı Ayan Məmmədli də festivala qatılıb.

Ferens List, Aleksandr Skryabin və Bela Bartokun əsərlərini yüksək peşəkarlıqla səsləndirən musiqiçi müsabiqədə II yerə layiq görülüb.

# "Müasir audiovizual baxış" mükafatı təqdim olunacaq

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə 2019-cu ildən "AzerNyuMedia" şirkətinin istehsal etdiyi və hazırda "Real FM"də (107 FM) yayımlanan "Cinema Radio" kanalının növbəti – V "Müasir audiovizual baxış" mükafatı təqdim olunacaq.

Mükafatın təqdimetmə mərasimi hər il yanvarın sonlarında keçirilir. Mükafat "Cinema Radio"nun ötən il üzrə yekunları əsasında müəyyənləşir.

Qeyd edək ki, "Sinema Radio" 2019-cu ildən etibarən şənbə və bazar günləri yayımlanır. Kanalın buraxılışlarında əcnəbi kino bazarı haqqında məlumatlar, eləcə də Amerika Televiziya Sənətləri və Elmləri Akademiyasının eksklüziv xəbərləri, yerli və əcnəbi filmlərdən "soundtrack"lər, audiotreylerlər, audiosəhnələr, yerli audiovizual xəbərlər, xüsusi audioreportajlar, həmçinin maraqlı qonaqlarla müsahibələr yayımlanır.

"Cinema Radio" 2021-ci ildən Azərbaycan Mətbuat Şurasının üzvüdür, 2022-ci ildən etibarən Amerika Televiziya Sənətləri və Elmləri Akademiyası ilə əməkdaşlıq edir.

# Xalq rəssamı Tofiq Ağababayevin yaradıcılığı ilə bağlı mühazirə

Yanvarın 7-də Azərbaycan Milli İncəsənət Muzeyində Xalq rəssamı Tofiq Ağababayevin 95 illik yubileyi münasibətilə ötən il açılmış "Zamanla dialoq" sərgisi çərçivəsində mühazirə keçirilib.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Xanım Əsgərovanın "Tofiq Ağababayevin yaradıcılıq dünyası" adlı mühazirəsində qocaman sənətkarın uzun illərdir davam edən məhsuldar yaradıcılıq yolu haqqında dinləyicilərə geniş məlumat verilib, təsviri və dekorativ-tətbiqi sənət sahələrinin əhatə olunduğu zəngin bədii irsindən bəhs edilib.



Daha sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Qeyd edək ki, "Zamanla dialoq" sərgisi Mədəniyyət Nazirliyi və Azərbaycan Milli İncəsənət Muzeyinin təşkilatçılığı ilə ötən il dekabrın 8-də açılıb. Ekspozisiyada müəllifin Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və "Xəzər" muzey mərkəzinin kolleksiyasında yer alan rəngkarlıq, qrafika, eləcə də şüşə və keramikadan yaradılmış əsərləri nümayiş olunur. Sərgi yanvarın 10-da başa çatacaq.

Heydər Əliyev – 101

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiklərimizin əsas qismini "Heydər Əliyev İli"ndə diqqətinizə təqdim edik. Həmin silsilədən xronikanın dərcini davam etdiririk.

***(əvvəli qəzetin ötənilki saylarında)***

## İllərin xronikasından (90)

### 2000-ci il 14 aprel

Prezident Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının yekun iclasında nitqi söyləyib.

### 2000-ci il 21 aprel

Respublika Sarayında Xalq artistləri, Dövlət mükafatı laureatları Fidan və Xuraman Qasımova bacılarının iştirakı ilə keçirilən konsertdə olub. Konsertdən sonra Fidan və Xuraman Qasımovaları, dirijor Rauf Abdullayevi və simfonik orkestri uğurlu çıxışları münasibətilə təbrik edib, incəsənət ustaları ilə xatirə şəkli çəkdirib.

### 2000-ci il 25 aprel

Akademik Opera və Balet Teatrında Türk dünyasının görkəmli alimi, ictimai xadimi, Azərbaycanın böyük dostu İhsan Doğramacı və onun xanımı ilə birgə "Qız qalası" baletinin tamaşasına baxıb. Tamaşadan sonra İhsan Doğramacı ilə səhnə arxasına gələrək yaradıcı kollektivlə görüşüb. Baletmeyster Yulana Əlikişizadəyə, baletin musiqisini yenidən işləmiş bəstəkar Musa Mirzəyevə, dirijor Cavanşir Cəfərova və bütün kollektivə təşəkkür edib.

*"...Türkiyədən gələn dostlarımıza bildirmişəm ki, bu baleti 1940-cı ildə bizim mərhum böyük bəstəkarımız Əfrasiyab Bədəlbəyli yazıbdır. Bu, Azərbaycanın ilk milli baletidir. Əgər Azərbaycan xalqı 60 il bundan öncə belə bir bəstəkar yetişdiribsə və belə bir milli baleti tamaşaya qoyubsa, görün, xalqımızın mədəniyyət səviyyəsi nə qədər yüksəkdir! Azərbaycan baletinin ilk balerinası Qəmər Almaszadədir. O vaxt bu tamaşanın quruluşunu Qəmər Almaszadə hazırlayıbdır. İndi həmin quruluşdur... Ancaq Musa Mirzəyev onun musiqisini bir az müasirləşdiribdir...*

*Mən bu baletə bir neçə dəfə baxmışam. Bu balet uzun bir fasilədən sonra yenidən səhnəyə qoyulubdur. Bu ifaçılar da, təbiidir ki, onu çox gözəl ifa etdilər.*

*...Bilirsiniz ki, mən sizin maaşlarınızı altı dəfə artırdım. Mən Azərbaycanda heç bir təbəqənin maaşını altı dəfə artırmamışam... Əgər belə çalışsanız, baletimizi inkişaf etdirsəniz, bir müddətdən sonra bu məsələyə yenidən baxaram, maaşınızı yenə də artıraram. Çünki bu, çox ağır sənətdir...".*

### 2000-ci il 5 may

"Bakılı oğlanlar" ŞHK komandasının konsertində olub. Konsertdən sonra kollektivlə görüşüb.

*"...Sizi təbrik edir, yeni uğurlar arzulayıram. Sözünüzün üstündə durun, – dediniz ki, qalib gələcəksiniz. Deyiləni həyata keçirmək, verilən sözü yerinə yetirmək lazımdır. Mən buna ümid bəsləyəcəyəm. Yaxşı kollektiv yaranmışdır. Siz səhnədə düzüləndə görünür ki, çox böyük kollektivsiniz. Azərbaycanda məşhursunuz. Konsertiniz anşlaqla keçir, hamı gülür. Mən özüm o qədər güldüm ki, gözlərim yaşardı...".*

### 2000-ci il 7 may

Akademik Milli Dram Teatrında Cəfər Cabbarlının "Aydın" pyesinin yeni quruluşda tamaşasına baxıb. Fasilə zamanı görkəmli səhnə ustası, Xalq artisti Nəsibə Zeynalova və Xalq şairi Bəxtiyar Vahabzadə ilə söhbət edib. Tamaşa başa çatdıqdan sonra yaradıcı heyətlə görüşüb söhbət edib.

*"...Bu gün təqdim olunan tamaşa bizim üçün iki cəhətdən əhəmiyyətlidir. Birincisi, bu tamaşa bizim böyük dramaturqumuz Cəfər Cabbarlının 100 illik yubileyinə həsr olunubdur. İkincisi də bu gözəl teatrın və ümumiyyətlə, Azərbaycanda dünyəvi teatrın yaranmasının 125 illiyinə həsr olunubdur. Bilirsiniz ki, Azərbaycan dünyəvi teatrın yaranmasının 125 illiyi və Cəfər Cabbarlının 100 illik yubileyi münasibətilə mən sərəncamlar imzalamışam. Bu yubiley mərasimləri, demək olar ki, 1998-1999-cu illərdən keçirilir... Çünki həm bizim teatrın yaranması, həm də Cəfər Cabbarlı kimi böyük bir şəxsiyyətimiz layiqdirlər ki, onların yubileyləri bir ayda yox, bir ildə yox, uzun müddətdə keçirilsin...*

*"Aydın" tamaşasını mən keçmiş zamanlarda da görmüşəm. Bizim böyük sənət ustalarımız Ələsgər Ələkbərovun, – gərək ki, o Fatma Qədri ilə birlikdə oynayırdı, – onların ifasında görmüşəm... Uzun bir fasilədən sonra siz yenidən bu əsərə qayıtmısınız.*

*Mikayıl Mirzə gərək ki, ilk dəfədir rejissorluq işinə başlayıbdır. Bu onun ilk rejissorluq əsəridir və hesab edirəm ki, bu əsər də çox uğurludur. Ona görə mən səni təbrik edirəm.*

*Rasim Balayev, görürəm ki, indi Dövlət bəyi oynayırsan. Nəsimidən, Babəkdən, başqalarından sonra. Ancaq hər artist, aktyor üçün hər bir rol əhəmiyyətlidir.*

*Bizim gənc, istedadlı insanları görürəm. Gültəkin rolunu Məleykə xanım çox gözəl, məharətlə ifa etdi. Deyə bilərəm ki, onun ifası heç Fatma Qədrinin də ifasından geri qalmır. Nurəddin Mehdixanlı Aydın rolunu çox gözəl ifa etdi.*

*Tamaşa çox dinamik keçdi, çox böyük enerji tələb edirdi, xüsusən baş rollarda oynayanlardan... Təbiidir ki, aktyor üçün rolunu istədiyi kimi ifa etmək hər şeydən üstündür... Mən sizin hamınızı təbrik edirəm. Sizə yeni-yeni uğurlar arzulayıram".*

### 2000-ci il 20 may

Xalq artisti Nəsibə Zeynalovanı qəbul edib. Söhbət əsnasında Nəsibə xanımın atası, Azərbaycanın tanınmış aktyoru Cahangir Zeynalovun xatirəsi yad olunub, onun adının əbədiləşdirilməsinin zəruriliyi vurğulanıb. Nəsibə Zeynalova mədəniyyət və incəsənət xadimlərinə göstərdiyi daimi diqqət və qayğıya görə dövlət başçısına minnətdarlığını bildirib.

**Hazırladı: V.Orxan**

***(davamı var)***

## Əməkdar artist Aygün Bəylər vəfat edib

Azərbaycan mədəniyyətinə itki üz verib. Tanınmış müğənni, Əməkdar artist Aygün Bəylər 6 yanvar 2024-cü il tarixində uzun sürən xəstəlikdən sonra, ömrünün 49-cu ilində vəfat edib.



Aygün Aydın qızı Hümbətova (Aygün Bəylər) 22 avqust 1975-ci ildə Bakıda anadan olub.

1988-ci ildə yeni yaradılan Azərbaycan Dövlət Uşaq Filarmoniyasına solist olaraq qəbul edilib. 1995-ci ildə Şövkət Ələkbərova adına musiqi kollektivini yaradaraq geniş konsert fəaliyyətinə başlayıb. Sonradan Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi fəaliyyət göstərib.

Aygün Bəylər 1998-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) Xanəndəlik fakültəsinə daxil olub. Burada Arif Babayev, İslam Rzayev, Ağaxan Abdullayev və başqa görkəmli sənətkarlardan muğamın incəliklərini öyrənib.

2002-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adına layiq görülüb.

2005-ci ildə Özbəkistanın Səmərqənd şəhərində ənənəvi keçirilən "Şərq təranələri" beynəlxalq musiqi festivalında folk-muğam triosunun müşayiəti ilə çıxış edən Aygün Bəylər Azərbaycan muğam məktəbini uğurla təmsil edərək birinci mükafata layiq görülüb.

2005 – 2010-cu illərdə Fransa, İspaniya, Mərakeş, ABŞ, İngiltərə, Rusiya, Türkiyə, Yunanıstan, Almaniya, Cənubi Koreya, İsveç, Danimarka və s. ölkələrdə konsert proqramları ilə çıxış edib.

Özünəməxsus ifası ilə musiqisevərlərin rəğbətini qazanan Aygün Bəylərin əziz xatirəsi qəlblərdə yaşayacaq.

Mədəniyyət Nazirliyinin kollektivi Əməkdar artist Aygün Bəylərin vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

***

Düçar olduğu ağır xəstəliklə bağlı müayinə üçün getdiyi Ankara şəhərində vəfat edən Aygün Bəylərin cənazəsi yanvarın 7-də təyyarə ilə Bakıya gətirilib.



Yanvarın 8-də Suraxanı rayonundakı Səttar Bəhlulzadə adına Mədəniyyət evində vida mərasimi keçirilib. Mərasimdə mərhumun yaxınları, sənət dostları, eləcə də Mədəniyyət Nazirliyinin təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. Birinci vitse-prezident Mehriban Əliyevanın adından, Mədəniyyət Nazirliyinin, digər qurumların adından cənazə önünə əkliллər qoyulub.

Aygün Bəylər Suraxanı qəbiristanlığında dəfn olunub.

## Tanınmış qarmon ifaçısı Gülbahar Şükürlü dünyasını dəyişib

Azərbaycan mədəniyyətinə itki üz verib. Əməkdar artist, tanınmış qarmon ifaçısı Gülbahar Şükürlü 5 yanvar 2024-cü il tarixində, 62 yaşında vəfat edib.



Gülbahar Müzəffər qızı Şükürlü 20 mart 1962-ci ildə Bakıda anadan olub. İncəsənət Gimnaziyasında təhsil alıb. Gənc yaşlarından qarmon ifaçılığı ilə məşğul olan musiqiçinin bəstələdiyi "Aytac" rəqsi və eyniadlı ilk albomu (1998) ona böyük uğur gətirib. Sonrakı illərdə "Rusif", "Ləman", "Ravanə" rəqslərini yaradıb, dörd albomu işıq üzü görüb.

Özünəməxsus ifası ilə musiqisevərlərin rəğbətini qazanan Gülbahar Şükürlü dəfələrlə beynəlxalq sənət layihələrində ölkəmizi təmsil edib.

Dövlət başçısının müvafiq sərəncamı ilə mədəniyyət sahəsində xidmətlərinə görə 2009-cu ildə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adına layiq görülüb.

Mədəniyyət Nazirliyinin kollektivi Gülbahar Şükürlünün vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

# Məzarı üstündə ağac əkin ki...

### Aygün Bəylər üçün vida sözü

Bilmirəm, astrofiziklər Ayın, Günəşin, digər səma cisimlərinin səsi barədə nələri öyrənib, araşdırıb, hansı elmi nəticələrə gəliblər. Amma əminəm ki, əgər Ayın, Günəşin səsi olsaydı, onların adını öz ismində birləşdirən Aygün Bəylərin uzaqlara gedən səsini, şirin avazını eşitcək, susardılar…

Nədən buna əminəm? Dilimizdə bir ifadə var. Əsasən nağıllarda işlənilir. Bir qadının, qızın zahiri gözəlliyini çatdırmaq istəyəndə söyləyirlər ki, o qədər gözəldir ki, aya deyir, sən çıxma – mən çıxım, günəşə deyir, sən çıxma – mən çıxım. Ayla günəşi öz adında birləşdirən unikal səs təmbrli, təbiətcə də, davranışca da, görkəmcə də hər kəsdən fərqli Aygün Bəylər.

Kişi qiyafəsində səhnəyə çıxdı, qısa vurulmuş saçı, beysbol papağı ilə tamaşaçıları təəccübləndirdi. Bizi inandırdı ki, səhnəyə çıxanın görkəmi deyil, səhnəyə çıxmaq səbəbi maraqlı olmalıdır: onun görkəmi ilə tərs-mütənasib olan xanımyana ifasına, ana laylası qədər şirin oxusuna o qədər alışdıq ki, aradabir qəliz saç düzümü, üzünün məsum ifadəsini dəyişəcək görkəm-libasda səhnədə göründəndə biz çaşdıq: dəyişməyən təkcə onun oxu tərzi idi, musiqiyə, sənətə səcdə məqamında sevgisi idi.

Aygün Bəylər ağlıkəsən uşaq yaşından səhnədə, el məclislərində idi deyə, davranış incəliklərini




mənimsəməyə vaxtı, hövsələsi çatmamışdı. Dəvət olunduğu televiziya proqramında onu müsahibəyə çəkəndə "oxumağım tökülür, məni az danışdır, musiqini verin" deyəcək qədər sadə xasiyyəti var idi. Sənət sevgisindən böyük sənət bacarığı, insanlara olan sevgisi, səxavəti onun xırdaca qüsurlarını ört-basdır edirdi.

…İllər öncə bir televiziya kanalında, səhv etmirəmsə, "Ay ev yiyəsi" adlı proqram vardı. Çəkiliş qrupu tanınmış hansısa sənət adamını götürüb bölgələrdəki nisbətən imkansız ailələrə qonaq gedirdi. Qrupun həmin ailəyə sponsor hədiyyəsi də olurdu, qonaq da adına görə həmin qapını əliboş döymürdü.

Yadımdadır, Aygün Bəylər həmin proqramda qonaq olanda tək yaşayan ahıl qadına televizor bağışlamışdı...

Aygün şipşirin səsi ilə çox xalq mahnısına yeni həyat vermişdi, neçə bəstəkarın nəğməsini hitə çevirmişdi. Filarmoniyadakı ilk solo konserti də yadımdadır. Əslində, həmin konsert baş tutmamışdan əvvəl yaddaşlara köçmüşdü: afişa vurulandan iki gün ərzində bütün biletlər satılmışdı.

Səsinin imkanlarına görə Aygün muğamdan etno-folka, folk-cazadək nə desək, oxuya bilərdi. Mütəm təhsili oxuma istedadını bir qədər də cilaladı. Musiqi ilə daha ciddi məşğul olmaq, bəstəkarlıq təhsili də almaq istəyirdi, arzusu yarımçıq qaldı…

Aygün Bəylər özü boyda ürəyi ilə, boyundan böyük səsi ilə getdi…

…Ölümündən əvvəl son konsertini oxudu. Kimyaterapiyanın görkəminə çəkdiyi sığala rəğmən, göz yaşı içində konsertini orkestrin müşayiəti ilə canlı oxudu…

*Tut ağacım, tut ağacım,*
*Aman yerim, güman yerim.*
*Xatirələr qanadında*
*Yaşatdığım pənah yerim.*

*Tut ağacım, tut ağacım,*
*Sirli sözüm, anan yerim.*
*Tut ağacım, ucalığım,*
*De, arzuma necə çatım?..*

…Yığılan məbləğini YAŞAT Fonduna köçürəcəyini demişdi. Onun hər ifası, hər çıxışı YAŞATmağa, YAŞAmağa hesablanmışdı…

Amma nə edəsən ki, amansız xəstəlik YAŞATmaq və YAŞAmaq istəyinə qalib gəldi… Onun da qisməti belə yazılıbmış…

Rəhmət diləməkdən başqa çarəmiz yoxdu…

*"Mədəniyyət" qəzeti kollektivinin və Aygünsevərlərin adından ehtiramla*

**Gülcahan Mirməmməd**

# Tarixin daş yaddaşına işıq salan alim

### Məşədixanım Nemətova – 100

Azərbaycan tarix elminin inkişafına töhfələr verən alimlərimizdən biri də AMEA-nın müxbir üzvü Məşədixanım Nemətova olub. O, 60 illik elmi fəaliyyəti dövründə tarixi ərazilərimizi addım-addım gəzərək ərəb qrafikası ilə yazılan daş kitabələri araşdırıb. Ölkəmizdə epiqrafika elminin təşəkkülü və inkişafı onun adı ilə bağlıdır. Görkəmli epiqrafçı alimin anadan olmasının 100 illiyi münasibətilə yada saldıq.



Məşədixanım Sədulla qızı Nemətova 5 yanvar 1924-cü ildə Bakıda dünyaya göz açıb. Uşaqlıq və gənclik illəri çətin dövrə təsadüf edir. Siyasi rejimin ədalətsizliklərinə dözməyən valideynləri vaxtsız vəfat edirlər. Səkkiznəfərlik ailə böyük qardaşının ümidinə qalır...

Sonra İkinci Dünya müharibəsi başlayır. Arxa-dayaqları olan həmin qardaşları cəbhəyə gedir və bir müddət sonra qara kağızı gəlir. Bununla da ailənin yükü Məşədixanımın üzərinə düşür. O, çətinliklərə baxmayaraq, 1943-cü ildə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olunur. Sonra görkəmli yazıçı Mir Cəlal Paşayevin köməkliyi ilə yeni açılan Şərqşünaslıq fakültəsinə dəyişilir. Hələ tələbə ikən müəllimlərinin köməyi ilə Azərbaycan Radiosunun fars dili şöbəsində tərcüməçi kimi çalışmağa başlayır. 1948-ci ildə təhsilini başa vurur. Təyinatla Azərbaycan EA-nın Tarix İnstitutunda işə qəbul olunur. Elə həmin il aspiranturada təhsilini davam etdirir. 1954-cü ildə namizədlik (fəlsəfə doktoru), 1968-ci ildə isə elmlər doktorluğu dissertasiyalarını müdafiə edir. 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilir.

Araşdırmalarda qeyd edilir ki, M.Nemətova ərəb qrafikasının müxtəlif xətləri ilə daşlara həkk edilən kitabələri araşdırıb, iqtisadi-siyasi, sosial-mədəni, tarixi, memarlıq, sənətşünaslıq, filologiya, İslam fəlsəfəsi-sufizm, toponimika, etnogenez məsələlərinə dair qiymətli elmi əsərlər ərsəyə gətirib. O, ümumilikdə 2500-dən artıq epiqrafik abidəni araşdıraraq tarixi əhəmiyyətini müəyyənləşdirib. 10-dan çox monoqrafiya, 200 elmi məqalə, o cümlədən 6 cildlik "Azərbaycanın epiqrafik abidələrinin toplusu"nu nəşr etdirib. Vaxtilə Leninqradda (indiki Sankt-Peterburqda) nəşr olunan "Şərq epiqrafikası" jurnalı yazırdı: "M.S.Nemətova Azərbaycanın kitabələrini sistematik olaraq toplayır və tədqiq edir... Məqalələrində əvvəllər məlum olmayan və özünün topladığı yazıları dərc etdirir... M.Nemətovanın nəşr etdirdiyi kitablar filoloq, dilçi və Azərbaycanın maddi və mənəvi mədəniyyəti, incəsənəti və bədii sənətkarlığı ilə məşğul olan tarixçilər üçün böyük maraq doğurur...".

1976-cı ildə Moskvada çapdan çıxmış "Tarixi ensiklopediya"da dünyanın bir sıra tanınmış tarixçi alimləri arasında M.Nemətovanın da adı qeyd olunmuşdu.

Alim xanəgah, müqəddəs məzar, zaviyə və s. abidələrdən əldə etdiyi kitabələr XII – XIX əsrlərdə Azərbaycanda mövcud olmuş sufi cəmiyyətlərinin – Qələndəriyyə, Qədiriyyə, Bektaşiyyə qolları Babailər və Çələbilər, Xəlvətiyyə, Nəqşbəndiyyə qolu Ələviyyə, sənətkarlarla bağlı Əxi cəmiyyətinin mərkəzləri, şeyxlərin adlarını, onların fəaliyyətlərinin xronoloji çərçivəsini və fəaliyyət dairəsini müəyyənləşdirib. Kitabələrdə gedən bir sıra titul, ləqəb və s. rütbələrə əsasən Şirvanşahlar dövlətinin quruluşu, idarə üsulu müəyyən edilib.

M.Nemətova epiqrafik abidələrə əsasən bir sıra memarlıq abidələrinin tikinti tarixini dəqiqləşdirib. Vaxtilə Araz və Həkəri çayları hövzəsində memarlıq abidələri üzərindəki kitabələrin oxunması ilə bağlı müəyyən çətinliklər olub. Ancaq M.Nemətova bu yazıları oxuyur və məlum olur ki, Zəngilanın Məmmədbəyli kəndindəki türbədə böyük alim Yəhya bəy Hacı Məhəmməd dəfn olunub. Yazıda türbənin tikilmə tarixi h.704/1305-ci il və Qarabağ memarlıq məktəbinin banisi Əli Məcdəddinin adı var. Beləliklə, M.Nemətova XIII – XIV əsrlərdə yaşayıb fəaliyyət göstərmiş, Füzuli, Zəngilan, Cəbrayıl, Zəngəzur (Səlim keçidi), Ələyəz və Dərələyəzdə yerləşən bir sıra abidələrin memarı Əli Məcdəddinin adını memarlıq tarixinə yazır.

M.Nemətova XII əsrdən XX əsrlərin əvvəllərinə kimi memarlıq və sənətşünaslıq tarixinə məlum olan inşaatçı usta, memar, xəttat və həkkakların siyahısına Bakı-Abşeron üzrə 105, Şəki-Zaqatala bölgəsi üzrə 137 nəfərin adını əlavə edib.

Görkəmli alim araşdırmaları ilə tarixən ölkəmizə qarşı ərazi iddiasında olan bədnam qonşularımıza da tutarlı cavab verib. Qeyd olunur ki, Zəngəzur mahalının Urud kəndindəki XIV – XVII əsrlərə aid qoç heykəli və sənduqə formalı məzar daşları üzərində yazılmış "Avladi ağvan" – alban övladları sözləri Zəngəzurda yaşamış alban tayfalarının türkləşməsini və İslamı qəbul etməsini sübuta yetirir. Abidələr üzərindəki qədim türk tayfalarına məxsus onqonların (tanrıların) – maral üzərində oturdulmuş ov quşları, Tibet yak öküzləri, şaman təsvirləri onların hələ İslamı qəbul etmədən çox-çox əvvəl türkləşməsini göstərir. Onlar İslamı qəbul etdikdən sonra bir müddət qədim inanclarını saxlayıb, sonra bu onların təsviri sənətinə keçib. Ümumiyyətlə, alimin bu istiqamətdə apardığı araşdırmalar türk elementinin Qafqaza gəlmə olduğu konsepsiyasını altüst edir. Sübut olunur ki, türklər Qafqazın aborigenləridir. M.Nemətova Zəngəzur, Laçın, Kəlbəcər, habelə Armazisxevidə (Gürcüstan), Qobustan tərəfdəki Qarabağ və digər qəbiristanlıqlarda aşkar etdiyi XIV – XIX əsrlərə aid at, qoç heykəlli və başdaşı formalı məzar daşlarında türk tayfalarına məxsus tamğaların, şamanların təsvirləri əsasında Cənubi Qafqazda türk tayfalarının yayılma arealını müəyyənləşdirib.

M.Nemətovanın bir sıra ölkələrdə elmi konfranslarda Azərbaycan elmini layiqincə təmsil edib. Onun araşdırmaları dünyanın tanınmış elm xadimləri tərəfindən yüksək qiymətləndirilib.

Dövlət başçısının sərəncamı ilə alim 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif edilib. Diqqətəlayiq araşdırmaları ilə tarix elmimizi daha da zənginləşdirən, daş kitabələrin öyrənilməsi sahəsində elmi məktəb yaradan Məşədixanım Nemətova 26 dekabr 2016-cı ildə, 92 yaşında Bakıda dünyasını dəyişib.

**Savalan Fərəcov**

# İllər öncə qəzetlər nədən yazırdı?

Yanvar təkcə yeni təqvim ilinin deyil, həm də yeni addımların, təşəbbüslərin başlanğıcı ola bilir. O cümlədən mətbuat sahəsində. Məsələn, 1 yanvar 1934-cü ildə Azərbaycan Sovet Yazıçıları İttifaqının orqanı – "Ədəbiyyat" qəzeti (sonralar "Ədəbiyyat və incəsənət") nəşrə başlamışdı. 57 il sonra, 2 yanvar 1991-ci ildə müəyyən mənada o qəzetin varislərindən sayıla biləcək yeni nəşrin – "Mədəniyyət" qəzetinin ilk sayı çapdan çıxıb. Mədəniyyət Nazirliyinin mətbu orqanı olan qəzet artıq 33 yaşını geridə qoyub.

Yeni olanlar isə, bir məlum məsələdə deyildiyi kimi, yaxşı unudulmuş, yəni, əslində, yaddan çıxmayan köhnələrdir. Bir neçə il əvvəl "Qəzetlər nədən yazırdı?" başlıqlı rubrikamız vardı. Orada illər öncənin mətbu səhifələrinə nəzər salır, qəzetlərdən seçmələr dərc edirdik. Həmin rubrikaya təkrar qayıtmaq qərarına gəldik. Həm də təkcə ötənlərin mətbu yaddaşda qalan maraqlı, əlamətdar fakt və olaylarını deyil, vaxtilə gündəmə gətirilmiş ayrı-ayrı problemləri də yada salmaq üçün. Çünki yaşadıqlarımıza, gördüklərimizə nəzərən etiraf etməliyik ki, istər ölkə miqyasında, ümuman cəmiyyətdə, istərsə də daha çox əhatə etdiyimiz mədəniyyət sahəsində illər əvvəl qaldırılmış, gündəmdə olmuş xeyli məsələlər, problemlər var ki, bu gün də aktualdır, həlli vacibdir...

Yenilənən rubrikada ilk olaraq elə "Mədəniyyət"in arxivinə göz yetirdik.

İllər öncənin dövri mətbuat nümunələrinə nəzər salmaq imkanına görə Milli Kitabxanaya təşəkkür edirik.

**1994-cü il...**

**Muzeylərin problemi**

"...Əgər Hacıqabul, Yevlax, Bərdə, Biləsuvar, Samux və Siyəzən rayonlarında tarix-diyarşünaslıq muzeylərinə indiyə qədər yer verilməyibsə, hansı mədəniyyətpərvərlikdən söz açaq? Bu hal paytaxtda da mövcuddur. Dövlət qərarı olmasına baxmayaraq bu günədək Bakı Şəhər İcra Hakimiyyəti Rəşid Behbudovun, Fikrət Əmirovun, Qara Qarayevin, Süleyman Rəhimovun, Rəsul Rzanın və digər sənətkarlarımızın ev muzeyini yaratmaq üçün əməli tədbir görməyib. Bina sarıdan acınacaqlı vəziyyətdə qalan təşkilatlarımızdan biri də Muzey Sərvətlərinin və Xatirə Əşyalarının Elmi Bərpası Mərkəzidir. Zaqafqaziyada yeganə müəssisə olan bu mərkəz barədə haralara müraciət olunmayıb. Lakin, hələ də nəticə yoxdur. Bu onu göstərir ki, biz milli tariximizə, maddi-mənəvi dəyərlərimizə laqeydcəsinə qiymət verməyə qadir deyilik... Belə olmasaydı, Masallı, Şərur, Tovuz, Şamaxı və Şəmkirdə muzey binası boşaldılıb başqa təşkilatlara verilməzdi. Belə olmasaydı, kommersiya şirkətləri bizim Muzey Mərkəzimizin binasına göz dikməzdi...

...Vətəndaş antik əşyanı satmaq istəsə, muzeylərin onu almağa gücü çatmır. Bu dövlət əhəmiyyətli məsələdir. Nə qədər ki, vətəndaş halal malını öz dəyərinə dövlətə sata bilmirsə, o öz xalısını, yaxud başqa əşyasını xaricdə yüksək qiymətə satmaq niyyətindən əl çəkməyəcək...".

Muzeylərə həsr olunmuş respublika müşavirəsindən sonra mədəniyyət nazirinin müavini Şəmsəddin Axundovla müsahibədən.

***

**Qısa xəbərlər**

1993-cü ilin noyabrında fəaliyyətə başlayan "İlham" miniatür teatrının ikinci tamaşası bu günlərdə təhvil verilib. Rəhman Əlizadənin "Don Kixot Abşeronski" pyesi İlham Namiq Kamalın tək ifasında oynanılır. Hazırda miniatür teatrında üçüncü tamaşa hazırlanır. Rəhman Əlizadənin "Dünyanın axırı" əsəri.

***

C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının kollektivi İrandan qastroldan qayıdıb. 15 gün Təbrizdə, 5 gün Ərdəbildə Süleyman Rəşidinin "Allah onlara rəhmət eləsin" əsərinin tamaşası ilə çıxış edən aktyorların oyunu cənublu qardaşlarımız tərəfindən maraqla qarşılanıb. Maraqlıdır ki, əsəri tamaşaya qoymaq Tehran İrşadi İslam İdarəsi tərəfindən sifariş verilib. Teatrı qastrola da həmin idarə dəvət edib.




***

Azərbaycan Mədəniyyət Fondunda görkəmli dilçi alim, tənqidçi, siyasi xadim Aydın Məmmədovun anadan olmasının 50 illiyi münasibətilə xatirə gecəsi keçirilib. Gecədə mərhum alimin yaxın dostları, iş yoldaşları çıxış etmiş, onun yaradıcılıq irsini toplayıb çap etdirmək barədə məsələ qaldırmışlar.

***

Azərbaycan Teatr Xadimləri İttifaqı və "Saler" firması A.M.Şərifzadənin anadan olmasının 100 illiyinə həsr olunmuş ikinci monotamaşalar festivalı keçirir.

**("Mədəniyyət" qəzeti, 27 yanvar 1994-cü il)**

# İşğal və Zəfər muzeyləri necə yaradılır?

## Fabrisio Konti: "Ağdamdakı İşğal muzeyində əsas diqqət şəhərin, Şuşada mədəniyyətin, Zəngilanda isə təbiətin məhvinə yönəldiləcək"




2023-cü ilin 18-19 dekabr tarixlərində Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə Bakıda keçirilən Mədəni İrs Forumu çərçivəsində italiyalı ekspert, fotoqraf Fabrisio Kontinin müəllifi olduğu "Agdam Delenda est" ("Ağdam dağıdılmalıdır") kitab-albomunun təqdimatı gerçəkləşdi.

Ağdam, Cəbrayıl, Füzuli, Şuşa və işğaldan azad olunmuş digər ərazilərimizin fotolarının yer aldığı nəşr işğal dövründə dağıdılmış, məhv edilmiş muzeylərin, mədəniyyət ocaqlarının dünya ictimaiyyətinə tanıdılması baxımından böyük əhəmiyyət daşıyır.

F.Konti azad olunmuş digər ərazilərimizdə İşğal və Zəfər muzeylərinin yaradılması layihələrində kreativ direktor, ekspert kimi xeyli müddətdir Azərbaycanda çalışır. Forumda "İşğaldan azad olunmuş ərazilərdə muzeylərin bərpası. İşğal və Zəfər muzeyləri" mövzusunda çıxış etdi. İtaliyalı mütəxəssis hazırda Laçın, Kəlbəcər və Zəngilanda İşğal və Zəfər muzeylərinin yaradılması istiqamətində işlərlə məşğuldur.

*– Cənab Konti, öncə Azərbaycana gəlişiniz və burada fəaliyyətə başlamağınız barədə danışardınız...*

– Bakıya ilk dəfə dörd il əvvəl gəlmişdim. O zaman Mədəniyyət Nazirliyi tərəfindən Bakıdakı Muzey Mərkəzinin modernləşməsi üzərində iş aparılacaqdı. 2020-ci ildə pandemiya səbəbindən bu işlər dayandırıldı. Sonra müharibə başlandı. 44 günlük müharibə bitəndən iki ay sonra biz artıq Bakıda yox, Qarabağda tarixi-mədəni irsin bərpası ilə bağlı nazirlikdən növbəti təklif aldıq. 2021-ci ilin yanvarında Ağdama getdik. Ağdam mənim üçün ruhlar şəhəri kimi yadda qalıb. Şəhərdə canlı heç bir şey yox idi. Yalnız bir neçə yerdə ağac (nar) və koldan savayı heç nə görmədik. Hətta heç bir heyvana belə rast gəlmədik. Bura mənə görə dağıntılar səhrası idi. Adətən müharibədən sonra biz nə görürük? Binaların bəzisi dağıdılır, bəzisi qalır. Amma Ağdamda tam halda qalan bir bina da yox idi. Nə damı, nə də pəncərəsi...

*– Bütün bunlar sizdə hansı təəssüratı yaratdı?*

– Bu hal məni çox mütəəssir etdi. Bir millət işğal etdiyi ərazini 30 il öz nəzarətində saxlayıb, amma orada, bir gün də olsun, yaşamayıb. Heç bir binanı istifadə etməyib, yararlanmayıb. Sizə deyim ki, təxminən 2 min il əvvəl Roma imperiyası dövründə bir şəhəri (Karfagen – red.) məhv edib Yer üzündən silmək üçün onlar həmin əraziyə duz tökmüşdülər. Çünki duz heç nəyin yetişməyinə imkan vermir. Onlar bunu etməklə şəhərin tamamilə məhv edildiyi mesajını vermişdilər. "Carthago delenda est" ("Karfagen Yer üzündən silinməlidir") ifadəsi belə yaranıb. Mən də hazırladığım albom-kitabın adını burada baş vermiş barbarlığı ifadə etsin deyə "Agdam delenda est" qoydum.






*– 44 günlük müharibədən öncə Ermənistan-Azərbaycan münaqişəsi haqqında məlumatınız vardımı?*

– Düzünü deyim, 2016-cı ilədək mən bu haqda heç nə eşitməmişdim. 2016-cı ildə bilib eşitdiyim bu idi ki, Qafqazda problemli bir ərazi var. Amma tam olaraq bilmirdik. Avropada bu haqda demək olar ki, danışılmırdı...

*– Bəs indi necə?*

– Hazırda çox şadam ki, bu məsələnin İtaliyada və Avropada tanınmasında az-çox mənim də fəaliyyətim var. Ona görə yox ki, mən Azərbaycanı və azərbaycanlıları sevirəm. Əsas ona görə ki, mən bu dəhşətləri, oradakı ekogenosidi, mədəni irsin məhvini öz gözlərimlə gördüm. Bu hadisənin dünyada tanıdılması və təbliğində, az da olsa, töhfəm varsa, bununla fəxr edirəm. Kitab-albomun işıq üzü görməsi ilə mən bu mədəni irsin dağıdılması faktını dünyaya çıxara bildim.

*– Nəşrin beynəlxalq təqdimatı olubmu?*

– 2024-cü ilin əvvəlində İtaliyanın bir sıra şəhərlərində təqdim olunacaq. Eyni zamanda Azərbaycan səfirliyinin köməkliyi ilə Vatikanda təqdim etməyi planlaşdırırıq. Artıq Nyu-York və Vaşinqtonda təqdimatlar olub.

*– Bir az da Zəfər və İşğal muzeyləri layihəsindən danışaq. İlk baxışdan layihəni necə gördünüz və hazırda işlər nə yerdədir?*

– İlk dəfə Zəngilan, Kəlbəcər, Cəbrayıl, Füzuli və Şuşaya gedəndə məndə belə bir fikir yarandı ki, biz bu dağıntını qorumalıyıq. Azərbaycan tərəfi də tarixin bu mərhələsini gələcək nəslə ötürmək istəyində idi. Şəhərin mərkəzində dağıntılar qoruq kimi saxlanılacaq. Biz istəyirik ki, gələcək nəsillər bu dağıntını görüb onunla "danışa" bilsinlər. Hər bir dağıntının QR kodu olacaq və onun vasitəsilə dağıntı onlara öz tarixini "danışacaq". Eyni zamanda düşündük ki, muzeylərin quruluşu iki hissəyə bölünsün. Sağ və sol hissələr. Bir tərəfdə işğal bir tərəfdə zəfər muzeyi olsun. İnsanlar bir tərəfdən digərinə keçiddə bu hadisələrin şahidi olan insanların müsahibələrini dinləyib görəcəklər. İki muzey və bir parkdan ibarət olacaq layihə memorial kompleks adlanır. Biz bunu şəbəkə kimi nəzərdə tutduq. Hər şəhərdə bu komplekslər yaradılacaq. Amma hər birində məzmun olaraq dəyişəcək. Məsələn, Ağdamda şəhərin məhvi, Şuşada mədəniyyətin məhvi, Zəngilanda isə təbiətin məhvi məzmunu önə çəkilib.

*– Muzeylərin dizaynı hansı əsaslarla müəyyənləşir?*

– Qısa deyim ki, məsələn, Ağdam muzeyinin içindəki yol adi yol deyil. Bura labirint şəklində qurulub. Bu labirintdə Xocalıdan çıxan insanların çəkdiyi əziyyət əks olunur.

*– Artıq dörd ildir Azərbaycana gəlib-gedirsiniz? Forumda da dediniz ki, Romadan daha çox Qarabağda olursunuz. Azərbaycan mədəniyyəti ilə tanışlığınız hansı səviyyədədir?*

– İtalyanlarla azərbaycanlılar bir-birinə çox bənzəyir. Mədəniyyətiniz mənə çox yaxın gəlir. Mətbəximiz də yaxındır. Buna görə də Azərbaycana gələndə heç bir çətinliyimiz olmur. Bizim bir-birimizə qəribə bir duyğumuz var. Hətta dili bilməsək belə, çox istiqanlı və sevgi ilə ünsiyyət yarada bilirik. Çox şadam ki, "Heydər Əliyev İli" çərçivəsində Albaniyanın paytaxtı Tiranada keçirilən mədəni tədbirin təşkilatçısı oldum. Bu zaman Azərbaycan mədəniyyəti ilə daha yaxından tanış olub böyük zövq aldım.

*– Nə vaxtdan muzeylərin təşkili sahəsində çalışırsınız?*

– 19 yaşımdan arxeologiya elmi ilə maraqlandığım üçün dalğıclıqla məşğul idim. Həmişə arxeoloq-tarixçi olmaq istəmişəm. Tarixçi və arxeoloq olmasam da, yaxşı dalğıc idim deyə arxeoloji komandaya dənizin dibindən qalıqları tapıb fotolarını çəkməyə kömək edirdim. Peşəm marketoloqdur. 10 il əvvəl belə qərara gəldim ki, marketinqdə öyrəndiklərimi mədəniyyət sahəsinə, muzey işinə yönəldim.

*– Bu gün muzeylər üçün əsas tələb nədir?*

– Hazırda ən vacib tələb dildir. İnsanlarla ünsiyyət qurmaq üçün dil vacibdir. Pandemiyadan sonra onlayn fəaliyyətdə də əsas budur.

*– Zəfər və İşğal muzeylərinin açılışı nə vaxta nəzərdə tutulur?*

– Düşünürəm ki, birinci Ağdamda, yaxud da Füzulidəki muzey kompleksləri hazır olacaq. 2024-cü ilin sonunu gözləyək.

*– Müsahibə üçün vaxt ayırdığınız üçün təşəkkür edirəm.*

– Siz sağ olun.

**Lalə Azəri**

## Afaq Məsudun romanı Bosniya və Herseqovinada nəşr olunub

Xalq yazıçısı, Azərbaycan Dövlət Tərcümə Mərkəzi idarə heyətinin sədri Afaq Məsudun "Azadlıq" romanı ölkəmizin Bosniya və Herseqovinadakı səfirliyinin təşəbbüsü ilə ingilis dilində nəşr olunub.

Sarayevodakı "Yesari Group" nəşriyyat evində çapdan çıxan kitaba "Azadlıq" romanı ilə yanaşı, yazıçının "Ölüm qapısında", "İkinci katib Veysman", "Alman kilsəsi", "Generalın ölümü", "Dahi", "Papa II İohann Pavel" və başqa hekayələri də daxil edilib. Əsərləri ingilis dilinə Anna Tompson-Əhmədova tərcümə edib.

Qeyd edək ki, ümumbəşəri mündəricəsi ilə seçilən "Azadlıq" romanı bir sıra digər Avropa ölkələrində də işıq üzü görüb.

## Qarabağ müharibəsi qəhrəmanlarının övladları "Ədibin Evi"ndə

Qarabağ müharibəsində qəhrəmancasına həlak olan hərbçilərimizin övladlarının bir qrupu Yeni il tətili günlərində "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə İçərişəhərdəki "Ədibin Evi"ni ziyarət ediblər.

Məktəblilər burada 1929-1940-cı illərdə yaşamış görkəmli Azərbaycan yazıçısı, alimi və pedaqoqu Mir Cəlalın həyat və yaradıcılığı ilə tanış olub, Azərbaycan ədəbiyyatında hekayə janrı barədə müzakirə aparıb, özlərini kiçik hekayə yazılışında sınayıblar.

"Ədibin Evi"nin icraçı direktoru Şəfəq Mehrəliyeva vurğulayıb ki, məktəblilərin valideynləri Vətən uğrunda canlarından keçərək müasir Azərbaycanın ən şanlı tarixi hekayəsini yazdılar. Yeni tariximizin uğurlarını davam etdirmək missiyası indi onların övladlarına keçir. Məktəblilər bu il Azərbaycanın həyatında baş verəcək əhəmiyyətli hadisə – iqlim dəyişikliyinə həsr edilən mötəbər COP29 beynəlxalq tədbiri barədə də öyrənib, Prezident İlham Əliyevin 2024-cü ili elan etdiyi "Yaşıl dünya naminə həmrəylik ili" barədə müzakirə aparıblar.

Seminar iştirakçıları qruplara bölünərək Çin təqvimi ilə bu ilin rəmzi olan "Əjdaha" barədə məzəli hekayə və illüstrasiyalar üzərində işləyiblər. Bütün iştirakçılar "Ədibin Evi"ndən xatirə hədiyyələri ilə ayrılıblar.

## Türkiyəli qonaqlar Milli Azərbaycan Ədəbiyyatı Muzeyini ziyarət ediblər

Türkiyə Cümhuriyyəti Mehmet Akif Ərsoy Vəqfinin başqanı Ruyan Soydan Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin qonağı olub.

Muzeyin direktoru akademik Rafael Hüseynov qonaqla görüşərək Azərbaycan-Türkiyə ədəbi əlaqələri və muzeydəki Yunus Əmrə ekspozisiyasının yaranmasından danışıb. Hüseyn Cavid yaradıcılığına xüsusi rəğbət və sevgisini bildirən Ruyan Soydan akademik Rafael Hüseynovun ədibin irsinə münasibətini bildikdən sonra söhbətin axarı "Vaxtdan uca", "Əbədi Cavid", "Cavidlər" əsərlərinə yön alıb. Nizami muzeyini "böyük bir ibrətlə, heyranlıqla, hətta bir az qısqanclıqla" gəzdiyini deyən Ruyan Soydan buranın "Türk dünyasının bütün ədəbiyyatlarına ev sahibliyi edən bir muzeyə çevrilməsini" diləyib, akademik Rafael Hüseynova təşəkkürünü bildirib.



Muzeyin Doktorantura və elmi inkişaf şöbəsinin böyük elmi işçisi Sevinc Heydərova qonaqları ədəbiyyatımızın nadir nümunələri, zəngin ekspozisiya ilə tanış edib.

Sonda akademik Rafael Hüseynov "Əbədi Cavid" kitabını öz imzası ilə, eləcə də muzeyin nəşrlərindən nümunələri qonaqlara hədiyyə edib.

## Xatirə təqvimi 1–11 yanvar

### Azərbaycan

**1 yanvar 1909** – Əməkdar mühəndis, səs operatoru Ağahüseyn Əşrəf oğlu Kərimov (1909–1991) anadan olub. "Azərbaycanfilm"də işləyib, aktyor kimi "Ad günü", "Yaramaz" və s. filmlərdə çəkilib.

**1 yanvar 1937** – Xalq artisti Eldəniz Məmməd oğlu Zeynalov (1937 – 5.11.2001) Bakıda anadan olub. "Əhməd haradadır?", "Bir cənub şəhərində", "Ömrün səhifələri", "Yol əhvalatı" və s. filmlərdə, teatr və televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**1 yanvar 1940** – Əməkdar incəsənət xadimi, pianoçu, pedaqoq Oqtay Hüseyn oğlu Abasquliyev (1940 – 2.3.2016) Bakıda doğulub. BMA-nın tədris üzrə prorektoru olub.

**1 yanvar 1940** – Əməkdar incəsənət xadimi, bəstəkar, musiqişünas Nərgiz Mahmud qızı Şəfiyeva (1940 – 8.4.2020) Bakıda anadan olub.

**1 yanvar 1947** – Xalq artisti Mikayıl Mirzə (Mikayıl Şahvələd oğlu Mirzəyev; 1947 – 3.6.2006) Ağsu rayonunda doğulub. Akademik Milli Dram Teatrında çalışıb, filmlərdə ("Qatır Məmməd", "Üzeyir ömrü" və s.), televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb. Milli Məclisin deputatı (2001-2005) olub.

**2 yanvar 1936** – Əməkdar müəllim, musiqişünas Zərifə Musa qızı Bakıxanova (1936–2014) anadan olub.

**2 yanvar 1937** – Xalq rəssamı, heykəltaraş Arif Şamil oğlu Qazıyev (1937 – 3.9.2021) İrəvan şəhərində doğulub. Müxtəlif mövzularda əsərlər, görkəmli şəxsiyyətlərin heykəl və büstlərini (Hüseyn Cavidin büstü – şairin Naxçıvandakı ev-muzeyində) yaradıb.

**2 yanvar 1944** – Əməkdar artist Qurban Məmiş oğlu Abbasov (1944–1998) anadan olub. Gəncə Dövlət Dram Teatrında çalışıb.

**2 yanvar 1945** – Əməkdar artist Səməndər Mənsim oğlu Rzayev (1945 – 27.3.1986) Ağsuda anadan olub. Milli Dram Teatrında çalışıb. "Nəsimi", "Babək", "Bağ mövsümü", "Bəyin oğurlanması" və s. filmlərdə çəkilib, televiziya tamaşalarında maraqlı obrazlar qalereyası yaradıb.

**3 yanvar 1907** – Xalq artisti, pianoçu Kövkəb Kamil qızı Səfərəliyeva (1907 – 27.6.1985) anadan olub. Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) dərs deyib, konservatoriyanın nəzdində Orta ixtisas musiqi məktəbinin (hazırda Bülbül adına məktəb) direktoru olub.

**3 yanvar 1944** – Əməkdar rəssam Arif Qəndi oğlu İsmayılov (1944 – 9.10.2014) anadan olub.

**4 yanvar 1932** – Görkəmli yazıçı, dramaturq, publisist Cəlil Hüseynqulu oğlu Məmmədquluzadə (22.2.1869 – 1932) vəfat edib. Nəsr və dram əsərləri ilə Azərbaycan ədəbiyyatına töhfələr verib. 1906 – 1932-ci illərdə (fasilələrlə) nəşr etdirdiyi "Molla Nəsrəddin" jurnalı ilə Azərbaycan satirik jurnalistikasının əsasını qoyub.

**4 yanvar 1946** – Satirik şair, "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli nümayəndəsi Əli Nəzmi (Əli Məhəmməd oğlu Məmmədzadə; 1878-1946) vəfat edib.

**4 yanvar 1946** – Xalq artisti Rafael Məlik oğlu Dadaşov (1946 – 16.3.2020) Zaqatalada doğulub. Milli Dram Teatrının səhnəsində, filmlərdə, televiziya tamaşalarında yaddaqalan rollar oynayıb.

**4 yanvar 1983** – Tanınmış rəssam İbrahim Səfi (İbrahim Qafar oğlu Səfiyev; 1898-1983) İstanbulda vəfat edib. Naxçıvanda doğulub. Türkiyədə yaşayıb-yaradıb.

**4 yanvar 2000** – Xalq artisti Sofiya Bəşir qızı Bəsirzadə (Vəzirova; 28.2.1918 – 2000) vəfat edib. Milli Dram Teatrında çıxış edib. "Şərikli çörək", "Romeo mənim qonşumdur", "Yol əhvalatı" və s. filmlərdə çəkilib.

**4 yanvar 2021** – Əməkdar incəsənət xadimi, bəstəkar Nailə Ağabala qız Mirməmmədli (23.5.1961 – 2021) vəfat edib.

**5 yanvar 1884** – Opera müğənnisi, teatr xadimi Əhməd Bəşir oğlu Ağdamski (Bədəlbəyli; 1884 - 1.4.1954) Şuşada doğulub. Milli teatrda azərbaycanlı aktrisaların olmadığı vaxtlarda tamaşalarda qadın rollarını oynayıb. 1934-cü ildən pedaqoji fəaliyyətlə məşğul olub.

**5 yanvar 1887** – Əməkdar incəsənət xadimi, tarzən Mirzə Mənsur Məşədi Məlik oğlu Mənsurov (1887 – 30.6.1967) anadan olub.

**5 yanvar 1924** – Azərbaycanın ilk epiqrafçı qadın alimi, tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü Məşədixanım Sədulla qızı Nemətova (1924 – 26.12.2016) Bakıda anadan olub.

**5 yanvar 1927** – Yazıçı Əlfi Səhlik oğlu Qasımov (1927 – 12.3.1985) Ağdam rayonunun Poladlı kəndində anadan olub.

**5 yanvar 1948** – Əməkdar mədəniyyət işçisi Fərhad Ağa Səlim oğlu Babayev (1948 – 2.10.2023) Bakıda anadan olub. Heydər Əliyev Sarayının direktoru işləyib.

**5 yanvar 2024** – Əməkdar artist, tanınmış qarmon ifaçısı Gülbahar Müzəffər qızı Şükürlü (20.3.1962 – 2024) vəfat edib.

**6 yanvar 1907** – SSRİ Xalq artisti İsmayıl Yusif oğlu Dağıstanlı (Hacıyev; 1907 – 1.4.1980) Qax rayonunun Zərnə kəndində doğulub. Milli Dram Teatrında klassik obrazlar silsiləsi yaradıb, filmlərdə çəkilib.

**6 yanvar 1914** – Əməkdar artist Nəcibə Məcid qızı Behbudova (1914–1999) Tiflisdə anadan olub. Tiflis Azərbaycan teatrında, Musiqili Komediya Teatrında çalışıb, filmlərdə çəkilib.

**6 yanvar 1938** – Görkəmli şair Mikayıl Müşfiq (Mikayıl Əbdülqadir oğlu İsmayılzadə; 5.6.1908 – 1938) repressiya olunaraq güllələnib.

**6 yanvar 1962** – SSRİ Xalq artisti Mərziyyə Yusif qızı Davudova (8.12.1901 – 1962) vəfat edib. Milli Dram Teatrında çalışıb, filmlərdə çəkilib.

**6 yanvar 2024** – Əməkdar artist, xanəndə Aygün Aydın qızı Hümbətova (Bəylər; 22.8.1975 – 2024) vəfat edib.

**7 yanvar 1919** – Əməkdar mədəniyyət işçisi, kinooperator, rejissor Vladimir Yevgenyeviç Konyagin (1919-2002) anadan olub. "Azərbaycanfilm"də çoxsaylı sənədli filmlər çəkib, Dövlət mükafatına layiq görülüb.

**7 yanvar 1928** – Əməkdar memar Yuzef İslam oğlu Qədimov (1928 – 8.1.2012) anadan olub. Bakıdakı Heydər Əliyev adına İdman-Konsert Kompleksinin, Aktyor Evinin və digər tikililərin layihə müəllifidir.

**8 yanvar 1903** – Azərbaycan teatrının tanınmış simalarından olan Ülvi Rəcəb (Ülvi Rəcəb Molla oğlu Şaşıqzadə; 1903–1938) Batumi yaxınlığındakı Canivri kəndində doğulub. Milli Dram Teatrında fəaliyyət göstərib. Repressiya qurbanıdır.

**8 yanvar 1920** – Xalq artisti, görkəmli aktrisa Leyla Ağalar qızı Bədirbəyli (1920 – 23.11.1999) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında çalışıb, "Səbuhi", "Arşın mal alan" (1945), "Fətəli xan", "Görüş", "Onun böyük ürəyi", "Dərviş Parisi partladır" və s. filmlərdə çəkilib. Azərbaycan və SSRİ Dövlət mükafatlarına layiq görülüb.

**8 yanvar 2022** – Əməkdar artist Novruz Yaqub oğlu Əliyev (Novruz Qartal; 1.3.1947 – 2022) vəfat edib. Akademik Musiqili Teatrın aktyoru olub.

**9 yanvar 1936** – Əməkdar rəssam, heykəltaraş Asim Rzaqulu oğlu Quliyev (1936 – 25.5.2012) Bakıda doğulub.

**9 yanvar 2016** – Xalq şairi Zəlimxan Yusif oğlu Yaqub (21.1.1950 – 2016) vəfat edib. Azərbaycan Aşıqlar Birliyinin sədri olub.

**10 yanvar 1932** – Musiqişünas Elmira Əbdülhəmid qızı Abasova (1932 – 12.2.2009) Bakıda doğulub. Konservatoriyanın (indiki BMA) rektoru (1977–1991) olub.

**10 yanvar 1937** – Əməkdar artist Nisə Heydər qızı Rzayeva (1937-2017) Naxçıvanda anadan olub. Mingəçevir Dövlət Dram Teatrında çalışıb.

**10 yanvar 1938** – Xalq artisti, bəstəkar Elza İmaməddin qızı İbrahimova (1938 – 11.2.2012) Hacıqabulda anadan olub. Populyar mahnıların, romansların müəllifidir.

**10 yanvar 1942** – Əməkdar incəsənət xadimi Baba Fazil oğlu Rzayev (1942 – 2.12. 2014) Lerik rayonunun Çayrud kəndində doğulub. Lənkəran teatrında baş rejissor işləyib.

**10 yanvar 1953** – Əməkdar artist Sevil Rza qızı Xəlilova (1953 – 28.11.2011) Bakıda doğulub. Milli Dram Teatrında çalışıb, televiziya tamaşalarında maraqlı rollar oynayıb.

**10 yanvar 1962** – Xalq artisti Əjdər Əliabbas oğlu Sultanov (8.12.1909 – 1962) vəfat edib. Milli Dram Teatrında çalışıb, filmlərdə çəkilib.

**11 yanvar 1875** – Tanınmış rus bəstəkarı, dirijor, pedaqoq Reynqold Qliyer (1875-1956) Kiyevdə doğulub. Bir müddət Bakıda çalışıb, "Şahsənəm" operasını yazıb. Azərbaycan SSR-nin Xalq artisti (1934) adına layiq görülüb.

**11 yanvar 1906** – Tarixçi, şərqşünas Əbdülkərim Əli oğlu Əlizadə (1906–1979) anadan olub.

**11 yanvar 1998** – Xalq artisti, tarzən Əliağa Eyvaz oğlu Quliyev (9.5.1917 – 1998) vəfat edib.

**11 yanvar 1999** – Əməkdar mədəniyyət işçisi Ramazan Həmzət oğlu Xəlilov (1901–1999) vəfat edib. Üzeyir Hacıbəylinin şəxsi katibi, 1975-ci ildən ömrünün sonunadək Üzeyir Hacıbəylinin Bakıdakı ev-muzeyinin direktoru işləyib.

**Hazırladı: V.Orxan**

№1-2 (2067)
10 yanvar 2024
www.medeniyyet.az

# Türk Dövlətləri Təşkilatının növbəti zirvəsi Aşqabadda keçiriləcək

## Məhtimqulu Fəraqinin 300 illik yubileyi münasibətilə

Böyük türkmən şairi və mütəfəkkiri Məhtimqulu Fəraqinin 300 illik yubileyi münasibətilə Aşqabadda Türk Dövlətləri Təşkilatı (TDT) hökumət başçılarının Zirvə görüşü və mədəniyyət nazirlərinin iştirakı ilə beynəlxalq konfransın keçirilməsi nəzərdə tutulur.

Bu barədə Türkmənistan Baş nazirinin müavini, xarici işlər naziri Rəşid Meredov Nazirlər Kabinetinin iclasında məlumat verib. O qeyd edib ki, nazirlər səviyyəsində tədbirin bu ilin mayında, hökumət başçılarının Zirvə görüşünün isə oktyabrda keçirilməsi nəzərdə tutulur.

Bununla yanaşı, Məhtimqulu Fəraqinin yubileyi münasibətilə Türkmənistan hökuməti elmi konfranslar, ədəbi axşamlar, film və tamaşaların nümayişi, həmçinin ABŞ, Böyük Britaniya, Cənubi Koreya, Yaponiya, Rumıniya, İspaniya, Almaniya və digər ölkələrdə yaradıcılıq həftələri keçirməyi planlaşdırır.

Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov hökumətə şairin yubileyinə həsr olunmuş beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkilini təmin etməyi tapşırıb.



Xatırladaq ki, TDT-nin "Türk Əsri" çağırışı altında 10-cu zirvə görüşü 2023-cü ilin 3 noyabrında Qazaxıstanın paytaxtı Astanada keçirilib.

# "Qızıl qlobus"u kimlər bölüşdürüb?

Hollivud Xarici Mətbuat Assosiasiyasının (Hollywood Foreign Press Association – Hollivudda akkreditə olunmuş əcnəbi jurnalistlərin birliyi) təsis etdiyi "Qızıl qlobus" mükafatının (Golden Globe Award) növbəti, 81-ci təqdimatı olub.

2024-cü ildə audiovizual sənət dünyasının ilk mükafatının sahibləri yanvarın 7-də Beverli-Hills şəhərində (Kaliforniya ştatı) keçirilən mərasimdə elan edilib.

Mərasimin favoritlərindən sayılan "Oppenheymer" filmi (rejissor Kristofer Nolan) təxminləri doğruldub. Atom bombasının yaradıcısı amerikalı fizikin (Robert Oppenheymer) həyatından bəhs edən film 8 nominasiyada "Qızıl qlobus"a iddiaçı idi və 4 mükafat qazanıb.

"Oppenheymer" "Qızıl qlobus"lardan ən nüfuzlusu sayılan "Ən yaxşı dram filmi" nominasiyası üzrə qalibi olub. Kristofer Nolan ən yaxşı rejissor kimi, Robert Oppenheymer obrazını canlandıran Kilian Mörfi (Cillian Murphy) ən yaxşı dram filmi aktyoru, Robert Dauni (Downey) isə bu filmdəki roluna görə ikinci planda ən yaxşı aktyor olaraq "Qızıl qlobus" qazanıblar.



9 nominasiyada mükafata namizəd olan "Barbi" filmi (rejissor Qreta Qerviq) cəmi iki "Qızıl qlobus"a layiq görülüb. "Warner Bros. Pictures"in böyük rezonans doğuran filmi "Ən yaxşı mahnı" (Billie Eilish, "What Was I Made For") və "Ən yaxşı prokat gəliri" (100 milyon dollardan çox gəliri olan filmlər üçün nominasiya ilk dəfə elan edilib) nominasiyaları üzrə mükafat əldə edib.

Bu iki filmə rəqib sayılan, məşhur rejissor Martin Skorsezenin çəkdiyi, Robert de Niro və Leonardo di Kaprio kimi ulduzların rol aldığı "Ay çiçəyi qatilləri" isə mükafatsız qalıb.

"Xarici dildə ən yaxşı film" nominasiyasının qalibi Fransa istehsalı olan "Düşmənin anatomiyası" ("Anatomy of a fall") olub. Ekran əsəri "Ən yaxşı ssenari" nominasiyası üzrə də mükafat qazanıb. Rejissor Jüstin Triyenin filmi ötən il Kann festivalında baş mükafata sahib olmuşdu.

Hayao Miyazakinin "Oğlan və quş"u Ən yaxşı animasiya filmi" kimi mükafatın qalibi olub.

Emma Stoun ABC kanalında yayımlanan "Sağ qalmaq" ("The Lost and Lost") mistik dramındakı roluna görə "Ən yaxşı aktrisa" nominasiyasında seçilib. "Ən yaxşı ikinci plan qadın rolu" üzrə mükafatı isə Davan Joy Randolph ("The Leftovers" – "Artıqlar", HBO serialı) alıb.

Qeyd edək ki, 1944-cü ildən təqdim edilən "Qızıl qlobus" Amerika kinosunun "Oskar"dan sonra ikinci nüfuzlu mükafatıdır. "Qızıl qlobus" kinematoqrafçılar üçün "Oskar"a aparan yol hesab edilir...

**V.Kamal**

# "Açar" Bolqarıstanda festivalda ölkəmizi təmsil edəcək

12-18 yanvar tarixlərində Bolqarıstan paytaxtında keçiriləcək 16-cı Sofia Menar Film Festivalının qısametrajlı filmlər proqramına Azərbaycandan "Açar" qısametrajlı bədii filmi salınıb.




Festivalda Yaponiya, ABŞ, İran, Tunis, Misir, Pakistan kimi ölkələrdən filmlər də nümayiş olunacaq.

Premyerası 2023-cü ilin aprel ayında Niderlandda, 14-cü "Go Short" Beynəlxalq Qısa Filmlər Festivalında olan "Açar" filmi "OB Film" və "Epic Production" şirkətlərinin birgə istehsalıdır. Ekran əsəri Qarabağda işğal olunmuş evinin sonuncu yadigarı və nişanəsi olan açarları 26 il qoruyub saxlayan Ümid kişinin hekayəsindən bəhs edir.

Ssenari müəllifi və quruluşçu rejissor Elşad Əliyev, görüntü rejissoru (quruluşçu operator) Cavid Oruclu, quruluşçu rəssam Arif Niftiyev, montaj rejissoru Elşad Rəhimov, səs rejissoru Mehman Nadirov, prodüserlər Orxan Behbid, Senur Əhədov və Mətin Ələkbərlidir. Filmdə Qurban İsmayılov, Rasim Cəfər, Reyhan Cəfər, Hüseyn İsgəndərov, Yusif Şeyxov, Zemfira Əbdülsəmədova, Arif Kərimov, Rövşən Ağayev, Eldar Cəbrayıl, Selin Cəbrayıl və başqaları çəkiliblər.

# 3 mindən çox tarixi əsər Türkiyəyə qaytarılıb

Müxtəlif vaxtlarda Türkiyədən aparılmış 3059 əsər 2023-cü ildə geri qaytarılıb.





Bu barədə Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy məlumat verib.

Bildirilib ki, il ərzində Bolqarıstan, İtaliya, ABŞ və İsveçrədən bir sıra tarixi-mədəni nümunələr – imperator heykəlcikləri, sikkələr, tunc heykəl, mərmər imperator heykəlcikləri, eramızın ikinci əsrinə aid kitabə, tunc qablar və s. ölkəyə qaytarılıb.

Nazir yeni qədəm qoyduğumuz 2024-cü ildə də zaman-zaman Türkiyədən qeyri-qanuni yollarla aparılmış əsərlərin geri qaytarılması üçün işlərin davam etdiriləcəyini deyib.

Qeyd edək ki, 2022-ci ildə bu qəbildən 1121 əsər Türkiyəyə qaytarılmışdı.

**Lalə Azəri**

# Vəfatından 47 il sonra səhnəyə "qayıdış"

Bu il tanınmış Amerika müğənnisi, aktyor Elvis Preslinin (Elvis Aaron Presley; 1935 – 1977) xatirəsinə həsr olunan "Elvis şouları" adlı silsilə konsertlər keçiriləcək.



London, Las-Veqas, Tokio və Berlini əhatə edəcək konsertlər zamanı "rok-n-roll"un kralı hesab olunan müğənni süni intellektin köməyi ilə "canlandırılacaq".

Noyabr ayında Londonda "Elvis şouları"nın premyerası olacaq. Tamaşaçılar səhnədə musiqiçinin minlərlə fotoşəkili və videoları əsasında yaradılmış tam ölçülü hologramını görəcəklər. Konsertdən sonra Londonda tematik sənət axşamları təşkil olunacaq.

Qeyd edək ki, Elvisi "diriltmək" ideyası İsveçin dünyaca məşhur ABBA qrupunun analoji şousunun uğurundan sonra yaranıb. 2022-ci ilin mayında qrup üzvlərinin gənclik illərində holoqramları olan "ABBAtars" səhnəyə proyeksiya edilmiş və böyük maraqla qarşılanmışdı. Layihədə 10 musiqiçidən ibarət canlı qrup səhnədə əvvəlcədən yazılmış mahnıların musiqi effektini artırmağa kömək edirdi...

# 25 nəfərdən çox olmasın...

Dünyanın ən gözəl şəhərləri siyahısında yer alan İtaliyanın Venesiya şəhərində bu ildən turist qruplarına məhdudiyyətlər tətbiq olunacaq.



Venesiya Bələdiyyəsinin qəbul etdiyi qərara əsasən, 2024-cü il iyunun 1-dən etibarən 25 nəfərdən çox olan turist qruplarının şəhərin tarixi mərkəzinə, həmçinin Murano, Burano və Torçello adalarına səyahətinə icazə verilməyəcək. Qərar davamlı turizmi təşviq etmək və şəhər sakinlərini qorumaq məqsədi daşıyır.

Bundan başqa, hazırda şəhərdəki bələdiyyə muzeylərinə girişdə 25 nəfərlik məhdudiyyət tətbiq edilir. Həmçinin meqafonlardan istifadə və yüksək səsli bələdçilik xidmətləri də qadağan olunub.

Qeyd edək ki, 70 il əvvəl Venesiyanın mərkəzində əhalinin sayı təxminən 175 min nəfər olduğu halda indi bu rəqəm 50 mindən aşağı düşüb. Şəhərdə turistlər üçün yerləşdirmə sayı (çarpayı sayı) isə əhali sayını üstələyib. Bu, bəzi evlərin turizm obyektinə çevrilməsi və daşınmaz əmlakın bahalaşması kimi səbəblərdən əhali arasında narahatlıq yaradır.

UNESCO Venesiya şəhərinin təhlükədə olan dünya irsi siyahısına salınmasını dəfələrlə tövsiyə edib.

# Qazaxıstanda kitabxanalar üçün vahid avtomatlaşdırılmış platforma

2024-cü ildə Qazaxıstanda kitabxanalar üçün vahid rəqəmsal platforma fəaliyyətə başlayacaq.



Qazaxıstan Respublikası Nazirlər Kabinetinin məlumatında bildirilir ki, hazırda ölkədə 11 mindən çox kitabxana müxtəlif informasiya sistem və kataloqlarından istifadə edir. Kitab fondunu nizama salmaq üçün vahid avtomatlaşdırılmış platforma hazırlanır. Yeni platforma sayəsində oxucular axtardıqları kitabı və yaxud onun elektron versiyasını asanlıqla tapa biləcəklər.

Bunun üçün vahid elektron oxucu biletləri də tətbiq ediləcək. İstifadəçilər elektron hökumət portalı vasitəsilə qeydiyyatdan keçməklə həmin bileti ala bilərlər.

Yeni platformada həmçinin kitab fondunun onlayn artırılması funksiyası da nəzərdə tutulub. Nəşriyyatlar da bu funksiyadan istifadə edə bilərlər: yeni əsərlər ödənişli abunə şərti ilə sistemə yüklənəcək. Bununla da, özəl nəşriyyatların və müəlliflərin maraqlarını qorumaq mümkün olacaq.

Qazaxıstan Baş nazirinin müavini Tamara Duysenova bu barədə danışarkən deyib: "Rəqəmsal platforma ölkənin bütün kitab fondunun vətəndaşlar üçün əlçatan olması məqsədilə yaradılır. İlk növbədə 10 ən iri kitabxana elektron variantа keçəcək. Qalan kitabxanalar isə yoxlanılacaq. Yalnız oxucular üçün axtarış proqramlarını kitab fondunun imkanlarına uyğunlaşdırmaq lazım gələcək".

**Gülcahan**

## Xronoqraf

### 232 il əvvəl...

**9 yanvar 1792-ci ildə** Rusiya ilə Türkiyə arasında 1787-ci ildə başlanan və Osmanlının məğlubiyyəti ilə nəticələnən müharibənin yekununa dair Yassı sülhü imzalanıb. Krım da daxil olmaqla Qara dənizin şimalındakı ərazilər, habelə Dnestr və Kuban çayı ətrafındakı torpaqlar Rusiyanın nəzarətinə keçib.

### 119 il əvvəl...

**9 yanvar 1905-ci ildə** Peterburqda "Qanlı bazar" qırğını baş verib. Çar II Nikolaya şikayət ərizələrini təqdim etmək istəyən minlərlə fəhlə keşiş Qaponun təhriki ilə Qış sarayına doğru irəliləyərkən qoşun hissələrinin güllə-baranı ilə qarşılanıb. "Qanlı bazar"da, müxtəlif mənbələrə görə, 2 mindən 5 minədək adam ölüb. Bu olaylar Rusiyada 1905-ci il inqilabının başlanması üçün təkan oldu.

### 104 il əvvəl...



**11 yanvar 1920-ci ildə** I Dünya müharibəsinin yekunlarına həsr olunmuş Versal (Paris) Sülh Konfransının Ali Şurasında Azərbaycan Xalq Cümhuriyyətinin tanınması barədə qərar qəbul olunub. Cümhuriyyət Parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun başçılıq etdiyi nümayəndə heyəti Qərb dairələri ilə aparılan birillik gərgin danışıqlardan sonra buna nail olmuşdu.

# Tarixdə bu gün

## Olaylar, faktlar (5–11 yanvar)



### 33 il əvvəl...

**5 yanvar 1991-ci ildə** Bakının Dağüstü mədəniyyət və istirahət parkında (indiki Şəhidlər xiyabanının ərazisi) 20-ci illərdə Azərbaycana rəhbərlik etmiş S.M.Kirovun heykəli sökülüb. Yarım əsrə yaxın burada "qərar tutan" abidə Azərbaycanda sosializmin təntənəsinin təcəssümü idi.

### 32 il əvvəl...

**6 yanvar 1992-ci ildə** Gürcüstanda dövlət çevrilişi baş verib. Prezident Zviad Qamsaxurdia ölkədən qaçıb.

***

**8 yanvar 1992-ci ildə** erməni təxribatçı dəstələri Azərbaycana qarşı daha bir terror əməli həyata keçiriblər. Türkmənistandan Krasnovodsk (Türkmənbaşı) – Bakı marşrutu ilə hərəkət edən bərədə törədilən terror aktı nəticəsində 25 nəfər həlak olub, 88 nəfər yaralanıb.

### 30 il əvvəl...

**6 yanvar 1994-cü ildə** Qarabağda Ermənistan işğalçı qoşunları ilə müharibədə əks-hücuma keçən Azərbaycan Silahlı Qüvvələrinin hissələri Füzuli rayonunun Aşağı Yağlıvənd, Kərimbəyli və Şükürbəyli kəndlərini azad edib, Horadiz qəsəbəsi nəzarət altına alınıb.

### 28 il əvvəl...



**9 yanvar 1996-cı ildə** çeçen komandirlərindən Salman Raduyevin dəstəsi Dağıstanın Kizlyar şəhərinə hücum edib. Terrorçular bir neçə gün şəhəri əllərində saxlayıblar. Rusiyanın güc strukturlarının uğursuz antiterror əməliyyatı zamanı 70-dən çox insan həlak olub, Raduyevin dəstəsi isə aradan çıxa bilib. 2000-ci ildə ələ keçirilən Raduyevə ömürlük həbs kəsildi. İki il sonra o, Perm vilayətindəki həbsxanada öldü.

**Hazırladı: V.Orxan**

Beynəlxalq Muğam Mərkəzinin rəhbərliyi və kollektivi
Xalq artisti Mələkxanım Eyyubovaya qardaşı
**Əliyaqub İsrafilovun**
vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.
**Allah rəhmət eləsin.**

***

Mükafat Əliyev və Vüqar Əliyev Cəbrayıl elinin dəyərli ziyalısı, şərqşünas, şair-publisist
**Şikar İsmayıl oğlu Məstəlinin**
vəfatı ilə əlaqədar mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verirlər.
**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5091. **Sifariş:** 86
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641